100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Sayı: 16 (24.502)
2 may 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Azərbaycan-Ukrayna:



## humanitar dəstək, sosial-iqtisadi əməkdaşlıq və balanslı siyasi yanaşma

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son illərdə humanitar yönümlü ardıcıl və məqsədyönlü siyasət həyata keçirərək beynəlxalq səviyyədə fəal, etibarlı və barışdırıcı aktor kimi mövqeyini xeyli gücləndirib. Müqayisə üçün qeyd etmək yerinə düşər ki, müstəqilliyin bərpasının ilk illərində humanitar yardıma ehtiyac duyan respublikamız sonrakı dövrdə aparılan sistemli islahatlar və əldə olunan iqtisadi inkişaf nəticəsində donor ölkəyə çevrilməyi bacarıb. Bu transformasiya, eyni zamanda beynəlxalq əməkdaşlığın genişlənməsi və fəal xarici siyasətin real göstəricisi kimi dəyərləndirilə bilər. Məhz bu inkişaf modeli Azərbaycanın Ukrayna ilə münasibətlərində də humanitar yanaşmanın güclənməsinə və ikitərəfli əməkdaşlığın daha geniş məzmun qazanmasına şərait yaradıb. Bu çərçivədə Azərbaycan tərəfindən ukraynalı uşaqların reabilitasiyası, humanitar dəstək proqramları və mülki əhaliyə yardım təşəbbüsləri həyata keçirilir. Aprelin 25-də Ukrayna Prezidenti Volodimir Zelenskinin ölkəmizə işgüzar səfəri və səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirilən görüşlər isə Azərbaycan-Ukrayna əlaqələrinin gələcək hədəflərinin müəyyənləşdirilməsi baxımından mühüm siyasi hadisə kimi dəyərləndirilə bilər. Bu görüşlər iki ölkə arasında humanitar, siyasi və iqtisadi əməkdaşlığın daha da dərinləşməsi üçün yeni imkanlar açır.

Səhifə ⇨ 3

# Qəbələ görüşü:

## Azərbaycan-Çexiya dostluğu və əməkdaşlığı üçün yeni perspektivlər



*Azərbaycanla Çex Respublikası arasında münasibətlər müstəqillik dövründən sonra formalaşaraq zamanla sabit və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq modelinə çevrilib. 1993-cü il yanvar ayının 27-də diplomatik əlaqələrin qurulmasından sonra iki ölkə arasında siyasi dialoq inkişaf edib, müxtəlif sahələrdə əməkdaşlıq üçün möhkəm zəmin yaranıb. Bu münasibətlər, əsasən, qarşılıqlı hörmət, suverenliyə ehtiram, beynəlxalq hüququn prinsiplərinə uyğun şəkildə davam və inkişaf etdirilir. Əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoyması və müxtəlif sahələr üzrə birgə fəaliyyətə dair yeni perspektivlərin müəyyənləşdirilməsi baxımından aprelin 27-də Çex Respublikasının Baş naziri Andrey Babişin ölkəmizə səfəri, səfər çərçivəsində Qəbələdə Prezident İlham Əliyevlə keçirilən təkbətək və geniştərkibli görüşlər, eləcə də Azərbaycan-Çexiya biznes-forumu mühüm yol xəritəsi müəyyənləşdirir. Bu görüşlər və forum iki ölkə arasında siyasi dialoqun dərinləşməsinə, iqtisadi və humanitar əməkdaşlığın genişlənməsinə əlavə impuls verəcək.*

Səhifə ⇨ 4

# Dahiliyin Heydər Əliyev zirvəsi



**Müasir Azərbaycan tarixinin 35 ildən artıq bir dövrü Ulu Öndərin adı ilə bağlıdır. Tarix baxımından qısa zaman kəsiyi olan bu dövr Azərbaycanın əsrlərə bərabər inkişaf, tərəqqi, yüksəliş salnaməsini təşkil edir. İstər sovetlər birliyində, istərsə də müstəqilliyin ilk illərindən məhz bu tarixi şəxsiyyətin rəhbərliyi altında ölkəmizin siyasi və sosial-iqtisadi inkişafının əsası qoyuldu. Azərbaycanın əvvəlcə böyük iqtisadi potensiala malik bir respublika, müstəqillik əldə etdikdən sonra isə bir dövlət kimi formalaşmasında bu dahi şəxsiyyətin əvəzolunmaz rolu vardır. Ulu Öndərimiz ölkəni tarixin burulğanlarından keçirərək özünün şah əsəri olan müstəqil Azərbaycan dövlətini yaratmış, onu beynəlxalq aləmdə söz sahibi olan qüdrətli bir dövlətə çevirmişdir.**

## Ulu Öndər Heydər ƏLİYEV:

*“Mənim həyat amalım yalnız sizə-bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyinə, ölkəmizin iqtisadi, siyasi inkişafına xidmət olmuşdur.”*

Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının tarixində və taleyində parlaq, silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəkası, fitri istedadı, dövlətçilik təfəkkürü ilə seçilən görkəmli dövlət xadimidir. Azərbaycanı müstəqilliyə, xalqımızı xoşbəxtliyə qovuşdurmaq bu böyük insanın həyat amalına çevrilmişdi. O, Ümummilli Lider kimi Azərbaycan dövlətinin, xalqımızın tərəqqi və inkişaf yolunu böyük uzaqgörənliklə müəyyənləşdirmiş, özündən sonrakı tarixi dövr üçün zəngin bir irs qoyub getmişdir.

1969-cu ilə qədər Azərbaycan sovetlər birliyinin geridə qalmış respublikalarından biri idi. Ümummilli Liderimizin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycan inkişaf edərək SSRİ-nin qabaqcıl respublikalarından birinə çevrildi. Xalqımızın böyük oğlu yalnız qazanılan nailiyyətlərlə kifayətlənmirdi, onun fəaliyyəti həm də gələcəyə ünvanlanmışdı. Müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin dövrdə təməli qoyulmuş potensiala əsaslanır. Xalqımızın böyük oğlunun dərin zəkası, güclü iradəsi, siyasi təcrübəsi sayəsində Azərbaycan yaşadı, irəlilədi, inkişaf etdi, işıqlı sabahlara doğru addımladı. O elə bir şah əsər yaradıb ki, bu əsərin hər səhifəsi gələcək nəsillər üçün elmi axtarış mövzusu olacaqdır. Onun şah əsəri müstəqil Azərbaycandır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəldiyi hər iki dövr iqtisadi tənəzzüllə xarakterizə olunsa da, məhz bu fenomenal şəxsiyyətin həyata keçirdiyi məqsədyönlü islahatlar nəticəsində ölkəmiz geriliyin daşını atmış, inkişaf edərək tərəqqiyə qovuşmuşdur. ***“İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyinə, ölkəmizin iqtisadi, siyasi inkişafına xidmət olmuşdur”***, – deyən Ulu Öndər Heydər Əliyevin böyük ideyaları, amalları bu gün də Azərbaycanın yoluna nur saçır, xalqımızı xoşbəxt gələcəyə səsləyir. Vətəni və xalqı qarşısında göstərdiyi misilsiz xidmətlər Ümummilli Liderimizin şərəfli ömrünü tariximizin canlı səhifəsinə çevirmiş, ona əbədiyaşarlıq haqqı qazandırmışdır.

Bu gün Azərbaycan Heydər Əliyev ideyaları ilə yaşayır, Azərbaycan sabaha ümidlə, inamla addımlayır. Bu ümidi, inamı xalqımızda Ümummilli Liderimiz Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsi yaradır. Müasir Azərbaycanı yaradan, yaşadan və onun əbədiliyini təmin edən Prezident İlham Əliyevin bu kursa sədaqəti hər bir azərbaycanlıda iftixar hissi doğurur. Bu inam xalqımızın işıqlı gələcəyinin təminatıdır. Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və şöhrəti artmaqdadır. Azərbaycan Cənubi Qafqazda sülhün, sabitliyin təmin olunmasında mühüm rol oynayır. Xalqımız özünün daha parlaq gələcəyinə doğru irəliləyir. Bütün bunlar üçün hər bir Vətən övladı, qədirbilən xalqımız dahi xilaskarımıza – Ulu Öndərimizə borcludur.

Hər birimiz sevinir və qürur hissi keçiririk ki, müstəqilliyin yolları ilə inamla irəliləyən Azərbaycanda Ulu Öndərin amal və əməlləri dönmədən həyata keçirilir. Ölkəmiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə yeni-yeni uğurlar qazanır. Respublikamız böyük addımlarla qarşıya qoyulmuş məqsədlərə doğru inamla irəliləyir. Hər günü bir qəhrəmanlıq dastanı olan, Azərbaycan tarixinə parlaq səhifə kimi yazılan 44 günlük Vətən müharibəsi ölkəmizin hərbi gücünün, ordumuzun haqq işi uğrunda ədalətli savaşının nümayişinə çevrildi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Dövlətimizin gücü, qüdrəti, Müzəffər Ali Baş Komandanımızın qətiyyətli siyasəti, xalqımızın mübariz ruhu, sarsılmaz birliyi Azərbaycanı yeni zəfərlərə aparacaq. Xalqımız bundan sonra da müzəffər və qurucu xalq kimi öz adını tarixin yaddaşına silinməz izlərlə həkk edəcək, üçrəngli bayrağımız daim ən yüksək zirvələrdə dalğalanacaq. ***“Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm”***, – deyən Prezident İlham Əliyev qazanılan tarixi qələbəmizlə Ulu Öndərin dövlətçilik irsinə necə sadiq olduğunu, Ata vəsiyyətini yerinə yetirdiyini nümayiş etdirir.

Bütün həyatını və fəaliyyətini öz xalqının xoşbəxtliyinə və doğma Vətənin qüdrətlənməsinə həsr edən Ulu Öndərimiz hələ sağlığında da Ümummilli Lider adını qazanmış, milyonlarla insanın qəlbində özünə möhtəşəm abidə ucaltmışdır. Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da Ümummilli Liderimizin əziz xatirəsini əbədiləşdirmək üçün bir çox ünvanlara Ulu Öndərin adı verilmiş, Naxçıvan şəhərində, muxtar respublikanın rayon mərkəzlərində Ulu Öndərimizin heykəlləri və büstləri ucaldılmışdır. SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə iki dəfə “Sosialist Əməyi Qəhrəmanı” adına layiq görüldüyünə görə anadan olduğu Naxçıvan şəhərində Heydər Əliyevin büstünün qoyulması sağlığında dahi şəxsiyyətə xalq məhəbbətinin, el sevgisinin nəticəsi idi.

***“Mən həyatımı xalqıma səadət gətirməyə həsr etmişəm”***, – deyən dahi insan hər zaman öz titanik fəaliyyətində xalqa arxalanmış, ən çətin anında ona müraciət etmişdi. Xalq da heç vaxt ondan öz dəstəyini əsirgəməmişdir. Dahi şəxsiyyət Heydər Əliyev, sözün əsl mənasında, həyatın mənasını xalqa və dövlətə təmənnasız xidmətdə görən, bu amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən millət fədaisi, siyasi lider idi.

Şərəfli ömür yolunu ölkəmizin inkişafına və tərəqqisinə həsr etmiş Ümummilli Lider anadan olmasının 103-cü ildönümündə də böyük sevgi və ehtiramla xatırlanır. ***“Azərbaycanın ən böyük sərvəti onun vətənpərvər insanları, onun müdrik xalqıdır”***, – deyən görkəmli dövlət xadimi Heydər Əliyev təkcə ömrünün, bir insan həyatının müdriklik zirvəsində deyil, həm də bütöv bir xalqın tarixinin yüksək zirvəsində idi. O, Azərbaycan xalqının müdriklik simvolu, müdriklik zirvəsi idi. Bu zirvədən baxanda yalnız bir ömrün yaşandığı illər deyil, bir xalqın dünəni, bu günü, sabahı görünür. Bu gün qədirbilən hər bir Azərbaycan vətəndaşının qəlbində Ulu Öndər Heydər Əliyevin ölməz və işıqlı obrazı yaşayır. ***“Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır”***, – deyən Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev ölkəmizin dövlətçilik tarixində o qədər böyük yeniliklərə, nəhəng işlərə imza atıb ki, deyilən sözlər onun cahanşümul fəaliyyətini əhatə etməkdə acizdir.

İllər ötdükcə biz Heydər Əliyev dühasının müstəqil və müasir Azərbaycanın tarixindəki əvəzsiz rolunu daha dərindən dərk edir, bu dahi şəxsiyyətin siyasi əzəməti, beynəlxalq nüfuzu barədə təkrar-təkrar düşünməyə mənəvi ehtiyac duyuruq. Çünki bu gün Azərbaycanın qüdrətli dövlətə çevrilməsi, dinamik sosial-iqtisadi inkişafı, dünya birliyində öz layiqli yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyevin ideyalarının yaşamasının, siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir. İstər ölkəmizin tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyev müstəqil və suveren dövlətin simvolu, xarizmatik siyasət dahisi, cəsur insan və ən böyük vətəndaş kimi qalmışdır və qalacaqdır. ***“Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır”***, – deyən Ulu Öndər Azərbaycanın ən yeni tarixində bütöv bir epoxanı özündə təcəssüm etdirən, müstəqil dövlətin siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, elmi əsaslarını yaradan, onların ardıcıl inkişafını təmin edən siyasi kursun və milli inkişaf strategiyasının müəllifidir.

Bütün ölkə vətəndaşları inanırlar ki, həyatını canından əziz bildiyi Vətəninə xidmətdə keçirmiş Heydər Əliyev dühasının işığında doğma Azərbaycanımız həmişə irəliyə və yüksəlişə doğru gedəcəkdir. Ulu Öndər Heydər Əliyevin ideyaları həmişə olduğu kimi, bu gün də yoluna işıq saçır, bizi yeni-yeni qələbələrə səsləyir. Ümummilli Lider Heydər Əliyev xalqın qəlbində tayı-bərabəri olmayan heykəl, əsrlərboyu yaşayacaq abidə – şah əsər ucaltdı. Bu abidənin, şah əsərin adı Azərbaycandır – müstəqil və qüdrətli Azərbaycan!

**Məhəbbət MİRZƏYEVA**

# Azərbaycan-Ukrayna:



## humanitar dəstək, sosial-iqtisadi əməkdaşlıq və balanslı siyasi yanaşma

**Prezident İlham ƏLİYEV:**

*“Müzakirə olunan məsələlər arasında siyasi dialoqdan başqa, xüsusilə energetika sahəsində əməkdaşlığı qeyd etmək istərdim. Burada həm əldə edilmiş nailiyyətlər var, – SOCAR Ukraynada uzun illərdir ki, uğurla fəaliyyət göstərir, – eyni zamanda çox gözəl perspektivlər, birgə layihələr var. Birgə təşəbbüslər, o cümlədən sərmayə qoyuluşu ilə bağlı məsələlər bu gün ətraflı müzakirə edilmişdir. Təbii ki, ticarət dövriyyəsinin bundan sonra da artırılması məsələləri də gündəliyin mərkəzindədir. Bizim ticarət dövriyyəmiz yarım milyard dolları ötüb. Amma ümid edirəm ki, növbəti illərdə bu rəqəm daha da böyüyəcək. Çünki buna da böyük imkanlar var.”*

(əvvəli 1-ci səhifədə)

***Liderlərin Qəbələdə keçirilən təkbətək və geniştərkibli görüşlərində Ukrayna Prezidentinin ölkəmizə bu səfərinin ikitərəfli əməkdaşlıq məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminlik bildirildi. Əməkdaşlığın bir çox istiqamətdə, o cümlədən enerji sahəsində genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı, kənd təsərrüfatı ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olundu, Hökumətlərarası Komissiyanın fəaliyyətinə toxunuldu. Bundan başqa hərbi-texniki əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı ki, bu sahədə də geniş perspektivlər mövcuddur. Belə ki, həm Azərbaycanda, həm də Ukraynada hərbi sənaye kompleksi inkişaf edir. Bu da birgə istehsalın təşkili baxımından əlverişli imkanlar yaradır. Ölkəmizin Ukraynaya humanitar dəstəyini, eyni zamanda Azərbaycan dövləti tərəfindən ukraynalı uşaqlara olan diqqət və qayğını yüksək qiymətləndirən qonaq bütün bunlara görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşlərin ardından mətbuata bəyanatında iki ölkə arasında əməkdaşlığın təsdiqi baxımından səfərin əhəmiyyətinə toxundu: “Keçən il iki mühüm hadisə baş vermişdir. Bakıda Xarici İşlər nazirliklərinin məsləhətləşmələri və Hökumətlərarası Komissiyanın iclası keçirilmişdir. Bu gün söhbət əsnasında bu tədbirlərin Ukraynada növbəti dövrdə keçirilməsi haqqında da fikir mübadiləsi aparılmışdır. Bir sözlə, bu gün biz bir çox istiqamətlər üzrə uğurla əməkdaşlıq edirik. Bu əməkdaşlıq bu gün bir daha təsdiqləndi”.***

### Humanitar missiya: mənəvi dayaq və sosial dəstək

Azərbaycanın xüsusilə regional münaqişə və müharibələr zamanı dinc sakinlərə dəymiş fəsadların aradan qaldırılmasına yönəlmiş humanitar dəstəyi beynəlxalq miqyasda təqdirəlayiq addım kimi dəyərləndirilir. Bu baxımdan, İran və Suriya ilə yanaşı, Rusiya-Ukrayna müharibəsi fonunda Ukraynaya göstərilən humanitar təşəbbüsləri nümunə səviyyəsində qeyd etmək olar. Belə ki, 2022-2024-cü illər ərzində Ukraynaya, ümumilikdə, on milyonlarla ABŞ dolları dəyərində humanitar yardım göstərilib, xüsusilə enerji infrastrukturunun bərpası üçün transformatorlar, generatorlar və elektrik avadanlıqları göndərilib. Bununla yanaşı, məktəblər və sosial obyektlər üçün yanacaq və texniki dəstək təmin olunub. Azərbaycan, həmçinin Ukraynada bir sıra sosial obyektlərin – məktəb və uşaq bağçalarının bərpasında iştirak edib. Bu ilin ötən dövründə də həmin ölkəyə humanitar yardımlar davam etdirilib.

Azərbaycanın həyata keçirdiyi humanitar siyasət çərçivəsində müharibədən zərər çəkmiş ukraynalı uşaqların reabilitasiyası xüsusi yer tutur. Təəssüf ki, münaqişələrin ən ağır psixoloji təsirini uşaqlar yaşayır və məhz buna görə respublikamızın bu istiqamətdə həyata keçirdiyi reabilitasiya proqramları mühüm humanitar təşəbbüs kimi dəyərləndirilir. Gələcəkdə ukraynalı tələbələrin də bu reabilitasiya proqramlarına cəlb olunması nəzərdə tutulur. Bu xüsusda aprelin 25-də Ukrayna Prezidenti Volodimir Zelenski ilə Prezident İlham Əliyevin görüşündə də tezliklə bir qrup ukraynalı tələbənin reabilitasiya məqsədilə, həmçinin Azərbaycanın mədəniyyəti və incəsənəti ilə tanış olması üçün ölkəmizə səfərinin nəzərdə tutulduğu vurğulandı. İki ölkə arasında münasibətlərin mühüm dayaqlarından biri hər iki xalqın nümayəndələri arasında əlaqələr və faydalı mədəni dialoqdur. Ukraynada fəaliyyət göstərən Azərbaycan diasporu bu əlaqələrin inkişafında körpü rolunu oynayır və mədəni, sosial və humanitar sahələrdə fəal iştirak edir. İkitərəfli əlaqələrin gələcək perspektivləri baxımından isə Azərbaycanın Vətən müharibəsindən sonrakı bərpa və yenidənqurma sahəsində qazandığı təcrübə Ukrayna üçün də əhəmiyyətli ola bilər. Xüsusilə mina təmizlənməsi sahəsində əldə olunan praktiki bilik və imkanlar gələcək əməkdaşlıq istiqamətlərindən biridir. Bundan əlavə, bərpa və quruculuq proseslərində Azərbaycanın təcrübəsinin Ukrayna ilə bölüşülməsi geniş potensial əməkdaşlıq imkanları yaradır.

### Balanslı siyasətdən iqtisadi əməkdaşlığa

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xarici siyasətini milli maraqlara əsaslanaraq həyata keçirir və beynəlxalq hüququn əsas prinsipləri olan dövlətlərin suverenliyi və ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycan uzun illər ərazi bütövlüyü problemi yaşamış ölkə kimi bu prinsiplərin əhəmiyyətini dərindən anlayır. Buna görə də Rusiya-Ukrayna münaqişəsində tərəf tutmur və hərbi komponentlərdən kənarda qalır, münaqişənin yalnız dialoq və diplomatik yollarla həll olunmasını dəstəkləyir.

Azərbaycan balanslı xarici siyasət apararaq müxtəlif ölkələrlə münasibətlərini eyni zamanda inkişaf etdirə bilir. Rusiya və Gürcüstan arasında gərginlik dövründə belə Azərbaycan hər iki tərəflə əlaqələrini qoruyub saxlamağa və inkişaf etdirməyə nail olub. Bu yanaşma ölkənin diplomatik çevikliyini və praqmatik xarici siyasət modelini nümayiş etdirir. Eyni münasibət özünü Ukrayna ilə əlaqələrdə və əməkdaşlıq müstəvisində də bariz şəkildə göstərir.

Azərbaycan-Ukrayna münasibətləri, həmçinin iqtisadi əməkdaşlıqla da dəstəklənir. SOCAR-ın Ukraynada fəaliyyət göstərən yanacaqdoldurma məntəqələri ikitərəfli iqtisadi əlaqələrin inkişafına töhfə verir. Bu amil enerji sahəsində əməkdaşlıq üçün geniş potensialın mövcud olduğunu da nümayiş etdirir. Prezident İlham Əliyev Volodimir Zelenski ilə Qəbələdə keçirilən görüşlərin ardından enerji sahəsində əməkdaşlığa xüsusi toxundu, ticarət dövriyyəsinin artırılmasının gündəlikdə duran məsələ olduğunu vurğuladı: ***“Müzakirə olunan məsələlər arasında siyasi dialoqdan başqa, xüsusilə energetika sahəsində əməkdaşlığı qeyd etmək istərdim. Burada həm əldə edilmiş nailiyyətlər var, – SOCAR Ukraynada uzun illərdir ki, uğurla fəaliyyət göstərir, – eyni zamanda çox gözəl perspektivlər, birgə layihələr var. Birgə təşəbbüslər, o cümlədən sərmayə qoyuluşu ilə bağlı məsələlər bu gün ətraflı müzakirə edilmişdir. Təbii ki, ticarət dövriyyəsinin bundan sonra da artırılması məsələləri də gündəliyin mərkəzindədir. Bizim ticarət dövriyyəmiz yarım milyard dolları ötüb. Amma ümid edirəm ki, növbəti illərdə bu rəqəm daha da böyüyəcək. Çünki buna da böyük imkanlar var”.***

Ümumilikdə, qeyd etmək olar ki, ötən illərin mənzərəsi, eləcə də Ukrayna Prezidenti Volodimir Zelenskinin ölkəmizə səfəri və Qəbələ görüşləri göstərir ki, Azərbaycan-Ukrayna əlaqələri humanitar dəstək, sosial əməkdaşlıq, iqtisadi münasibətlər və balanslı siyasi yanaşma əsasında formalaşaraq strateji mahiyyət kəsb edir. Bu münasibətlər gələcəkdə daha da genişlənmək və dərinləşmək potensialına malik olmaqla, iki ölkə arasında əməkdaşlığın yeni mərhələyə yüksəlməsi üçün mühüm zəmin yaradır.

**✍ Nail ƏSGƏROV**

# Qəbələ görüşü:



## Azərbaycan-Çexiya dostluğu və əməkdaşlığı üçün yeni perspektivlər

(əvvəli 1-ci səhifədə)

***Etibarlı tərəfdaşlıq və artan ticarət əlaqələri***

Ölkələr arasında siyasi və diplomatik münasibətlər konstruktiv xarakter daşıyır. Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edir və bir sıra qlobal məsələlərdə ortaq mövqe nümayiş etdirirlər. Rəsmi səfərlər, parlamentlərarası əlaqələr və diplomatik görüşlər bu münasibətlərin davamlılığını təmin edən əsas amillərdən hesab olunur. 2015-ci ildə imzalanmış Strateji tərəfdaşlıq haqqında Birgə Bəyanat uzunmüddətli əməkdaşlığın inkişafı baxımından önəm kəsb edir. 2011-ci ildə imzalanmış "İnvestisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş" isə birgə layihələr, həmçinin kapital axını üçün möhkəm hüquqi baza formalaşdırır.

Çexiya Avropa İttifaqının üzvü kimi Azərbaycanın Avropa strukturları ilə əlaqələrinin inkişafında müəyyən rol oynayır. Azərbaycan isə Cənubi Qafqaz regionunda sabitlik və əməkdaşlıq baxımından Çexiya üçün etibarlı tərəfdaş kimi çıxış edir. İkitərəfli əməkdaşlıqda iqtisadi münasibətlər əsas yer tutur. Bu münasibətlər yalnız tərəflərin maraqlarına deyil, həm də ümumilikdə, regionda rifahın artmasına və davamlı inkişafın təmininə töhfə verir. Ticarət dövriyyəsi, əsasən, enerji məhsulları üzərində qurulsa da, son illərdə qeyri-neft sektorunda da əməkdaşlığın genişlənməsi müşahidə olunur. Hazırda Azərbaycan ilə Çexiya arasında ticarət dövriyyəsi 800 milyon ABŞ dollarını keçərək əhəmiyyətli artım nümayiş etdirir. Lakin bu dövriyyənin strukturuna nəzər saldıqda əsas payın Azərbaycanın neft ixracının təşkil etdiyi aydın görünür. Bu səbəbdən tərəflər ticarət əlaqələrinin daha balanslı şəkildə inkişaf etdirilməsini və iqtisadi əməkdaşlığın strukturunun şaxələndirilməsini vacib hesab edirlər. Aprelin 27-də Çex Respublikasının Baş naziri Andrey Babişin ölkəmizə səfəri çərçivəsində Qəbələdə liderlərin həm təkbətək, həm də geniş tərkibli görüşləri zamanı bir sıra konkret iqtisadi və investisiya yönümlü layihələr müzakirə olunub ki, bu da gələcəkdə qarşılıqlı sərmayə qoyuluşunun artacağına və ticarət dövriyyəsinin daha da genişlənəcəyinə əsaslı ümidlər yaradır.

Azərbaycan Çexiya üçün enerji təhlükəsizliyinin təmin olunmasında mühüm tərəfdaşlardan biridir. Xüsusilə neft təchizatı sahəsində əməkdaşlıq diqqət çəkir. Bununla yanaşı, respublikamız Çexiya ilə qonşu ölkələrə də təbii qaz ixrac edir. Ümumilikdə, Azərbaycan hazırda 16 ölkəyə mavi yanacaq nəqli həyata keçirir ki, onlardan 10-u Avropa İttifaqının üzvüdür. Eyni zamanda Çexiya şirkətləri Azərbaycanda sənaye, nəqliyyat, maşınqayırma və infrastruktur sahələrində fəal iştirak edir. SOCAR-ın Avropa ölkələrində fəaliyyəti isə çoxtərəfli iqtisadi əlaqələrin praktiki əsasını daha da gücləndirir. Bu əməkdaşlıq həm enerji bazarının şaxələndirilməsi, həm də iqtisadi münasibətlərin genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Aprelin 27-də Prezident İlham Əliyev Çex Respublikasının Baş naziri Andrey Babişlə birgə mətbuata bəyanatında da iki ölkə arasında enerji sahəsi üzrə əməkdaşlığa xüsusi toxundu, Çexiya və Azərbaycanın çox etibarlı tərəfdaşlar olduğunu vurğuladı. Sitat: ***"Təbii ki, əməkdaşlığımızın böyük hissəsi energetika sektoruna aiddir. Burada da uzun illər ərzində Çexiya və Azərbaycan çox etibarlı tərəfdaşlardır. Azərbaycan nefti Çexiyaya ixrac edilir və Çexiyanın enerji balansında önəmli yer tutur. Azərbaycan dünya bazarlarına öz enerji resurslarını ixrac edən etibarlı ölkələr sırasındadır. Bunu, o cümlədən Avropa İttifaqı da qeyd edir və Azərbaycanı etibarlı tərəfdaş kimi qiymətləndirir".***

Ölkələrimiz arasında mühüm əməkdaşlıq istiqamətlərindən birini müdafiə sənayesi təşkil edir. Bu sahədə artıq uzun illərdir, uğurlu və davamlı tərəfdaşlıq formalaşıb. Azərbaycan Çexiyadan müxtəlif hərbi təyinatlı məhsullar idxal edir, eyni zamanda hazırda birgə istehsal layihələri üzrə konkret danışıqlar aparılır. Qarşıdakı dövrdə bu əməkdaşlığın daha geniş miqyas alacağı nəzərdə tutulur. Çünki Azərbaycan öz müdafiə potensialını, xüsusilə yerli istehsal imkanlarının genişləndirilməsi hesabına, ardıcıl şəkildə gücləndirir. Bu baxımdan, müdafiə sənayesi sahəsində zəngin təcrübəyə malik Çexiya ilə birgə layihələrin həyata keçirilməsi xüsusi strateji əhəmiyyət daşıyır. Çex Respublikasının Baş naziri Andrey Babişin ölkəmizə səfəri də müdafiə sənayesi sahəsində əməkdaşlığın yeni perspektivlərinin müzakirəsi baxımından mühüm və yaddaqalan hadisə oldu.

***Azərbaycan-Çexiya biznes-forumu: strateji iqtisadi əməkdaşlığın yeni mərhələsi***

Aprelin 27-də Qəbələdə Prezident İlham Əliyev və Baş nazir Andrey Babişin iştirakı ilə keçirilən Azərbaycan-Çexiya biznes-forumu ikitərəfli iqtisadi münasibətlərin keyfiyyətcə yeni mərhələyə keçdiyini nümayiş etdirdi. Tədbir çərçivəsində səsləndirilən fikirlər siyasi dialoqun artıq konkret iqtisadi layihələr və investisiya təşəbbüsləri ilə tamamlandığını göstərdi. Prezident İlham Əliyev Azərbaycanın sabit makroiqtisadi göstəricilərini, əlverişli investisiya mühitini və aşağı xarici borc səviyyəsini ölkənin əsas üstünlükləri kimi təqdim edərək iqtisadi dayanıqlılığın uzunmüddətli inkişaf üçün baza rolunu vurğuladı. Dövlət başçımızın dərinməzmunlu nitqi deməyə əsas verir ki, son illərdə ölkəyə yönəlmiş böyükhəcmli sərmayələr və beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq Azərbaycanın etibarlı investisiya məkanı kimi mövqeyini gücləndirib.

Forumda diqqətçəkən əsas məqamlardan biri əməkdaşlığın enerji sektorundan kənara çıxaraq sənaye, nəqliyyat, rəqəmsal texnologiyalar, süni zəka və bərpa olunan enerji kimi strateji sahələrə genişlənməsidir. Bu isə ikitərəfli iqtisadi əlaqələrin şaxələndirilməsi və daha dayanıqlı struktur qazanması baxımından mühüm əhəmiyyət daşıyır. Vurğulamaq yerinə düşər ki, xüsusilə Qarabağ və Şərqi Zəngəzurun bərpası çərçivəsində həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri xarici investorlar üçün yeni imkanlar yaradır. Bu prosesdə beynəlxalq maliyyə institutlarının iştirakı regionun iqtisadi reinteqrasiyasını sürətləndirən əsas amillərdən biri kimi çıxış edir. Prezident İlham Əliyev Qəbələdə keçirilən Azərbaycan-Çexiya biznes-forumunda çıxışı zamanı ölkəmizin qazandığı bütün siyasi, iqtisadi nailiyyətləri diqqətə çatdırdı, ölkəmizdə sərmayədarlara, ilk növbədə, lazım olan hər meyarın olduğunu vurğuladı: ***"Məqsəd qarşımızda olan mühüm layihələrin icrasında daha çox dinamika yaratmaqdır. Beynəlxalq təcrübəyə gəldikdə, biz həmçinin qeyd edə bilərik ki, "Moody's" Reytinq Agentliyi Azərbaycanın kredit reytinqini müsbət proqnozlu sərmayə reytinqi səviyyəsinə qaldırıb. Düşünürəm ki, bütün bunlar Azərbaycana pul vəsaitlərinin qoyulması üçün münasib məkan olması barədə investorlara yaxşı işarədir. Birmənalı olaraq, siyasi sabitlik, sosial sabitlik, təhlükəsizlik, yəni ölkədə işgüzar fəaliyyətlə məşğul olmaq qərarını qəbul edən sərmayədara, ilk növbədə, lazım olan hər meyar var".***

Nəqliyyat-logistika sahəsi də Azərbaycan-Çexiya əməkdaşlığının prioritet istiqamətləri sırasında yer alır. Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub dəhlizlərində tutduğu strateji mövqe ölkəni regionun əsas tranzit mərkəzlərindən birinə çevirir və Çexiya ilə əməkdaşlıq üçün əlavə imkanlar formalaşdırır. Ümumilikdə, biznes-forum Azərbaycan-Çexiya münasibətlərinin artıq klassik ticarət əlaqələrindən çıxaraq çoxşaxəli iqtisadi tərəfdaşlıq modelinə transformasiya olunduğunu təsdiqlədi. Siyasi sabitlik, qarşılıqlı etimad və geniş iqtisadi gündəm bu əməkdaşlığın gələcəkdə daha da dərinləşəcəyini göstərir.

Çex Respublikasının Baş naziri Andrey Babişin ölkəmizə səfəri, keçirilən yüksək səviyyəli görüşlər və təşkil olunan biznes-forum Azərbaycan-Çexiya münasibətlərinin sabit, praqmatik və ardıcıl inkişaf edən xarakter daşıdığını bir daha təsdiqləyir. Əsasən, enerji və iqtisadi əməkdaşlıq üzərində formalaşan bu münasibətlər, eyni zamanda siyasi dialoq və humanitar əlaqələrin də genişlənməsi ilə daha da dərinləşməkdədir. Gələcək perspektivdə bu əməkdaşlığın şaxələndirilərək yeni sahələri əhatə edəcəyi əsas prioritetlərdən biri kimi çıxış edir. Bu isə ikitərəfli münasibətlərin yalnız mövcud istiqamətlərlə məhdudlaşmadığını, əksinə, strateji xarakter alaraq genişlənməkdə olduğunu göstərir. Prezident İlham Əliyevin "X" sosial media hesabındakı paylaşımında dediyi kimi: ***"Ticarət dövriyyəmiz yüksək səviyyədə olsa da, iqtisadi əməkdaşlığımızı daha da inkişaf etdirərək şaxələndirmək üçün böyük potensial var. Səfər çərçivəsində keçirilən və işgüzar icmalarımızın nümayəndələrini bir araya gətirən biznes-forum bu istiqamətdə mühüm addımdır. Biz birgə hökumətlərarası iqtisadi komissiyanın səviyyəsini yüksəltmək qərarına gəldik ki, bu da xüsusilə enerji, sənaye və digər əsas sektorlarda daha effektiv koordinasiyaya töhfə verəcəkdir. Həmçinin müdafiə sənayesindəki əməkdaşlığımızı yüksək qiymətləndiririk və onun daha da inkişaf etdirilməsi üçün yaxşı perspektivlər görürük".***

**Nail ƏSGƏROV**

# “Sülh və Barışıq üçün Gernika mükafatı”

## Prezident İlham Əliyevin dünyaya nümunə olacaq sülh modelinin qurulması istiqamətindəki fəaliyyətinə verilən qiymətdir



*44 günlük Vətən müharibəsində torpaqlarını azad edərək 30 illik münaqişəyə son qoyan, 2023-cü ildə antiterror əməliyyatı ilə ərazisinin suverenliyini və bütövlüyünü bərpa edən Azərbaycan bir daha dünyaya ədalətin, tarixi həqiqətlərin gec-tez öz yerini tapdığını göstərdi. Ölkə başçısı səbrini, əzmini nümayiş etdirməklə qan tökmədən münaqişənin məhz sülh yolu ilə həllinə çalışıb. Çıxışları zamanı ölkə başçısı dəfələrlə bildirib ki, işğal dövründə bizim üçün sülh və suverenliyimizin bərpası hər zaman gündəliyimizin əsas prioriteti olub. Xoşbəxtlikdən biz artıq sülh şəraitində yaşayırıq. Bu, bir daha göstərir ki, sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun.*

Vətən müharibəsində qazanılan zəfər yalnız torpaqların işğaldan azad olunması deyil, haqqın, ədalətin təntənəsi idi. Ondan sonrakı proseslər, sülhün bərqərar olması yönündəki addımlar regionda təhlükəsizliyin və sabitliyin modeli kimi dünyaya təqdim olundu. Prezident İlham Əliyevin qətiyyətli mövqeyi nəticəsində Ermənistanı revanşizmə və regionu yeni qarşıdurmaya sürükləyən cəhdlərin qarşısı alındı. Ötən ilin avqustunda Vaşinqtonda baş tutmuş tarixi Zirvə Görüşündə Azərbaycan və Ermənistan arasında sülh sazişinin mətni paraflandı, Birgə Bəyannamə imzalandı. İki ölkə arasında etimad quruculuğu tədbirləri davamlı sülhün bərqərar olmasına töhfə verməklə yanaşı, iqtisadi, ticari və digər sahələrdə də real əməli fəaliyyət öz nəticələrini göstərməkdədir. Azərbaycanın neft məhsulları, üçüncü ölkələrdən taxıl və digər məhsullar ölkəmizin ərazisindən keçməklə Ermənistana ixrac edilir. Azərbaycanın ortaya qoyduğu mövqe göstərir ki, uzunmüddətli münaqişəyə baxmayaraq, güclü siyasi iradə ilə sülh əldə etmək mümkündür.

Dövlət başçısının ölkədə, eləcə də regionda sabitliyin qorunması istiqamətində atdığı addımlar dünya dövlətləri tərəfindən də təqdir olunur. Azərbaycan və Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyi səylərə görə Prezident İlham Əliyev “Sülh və Barışıq üçün Gernika mükafatı”na layiq görülmüşdür. Bu mükafat ənənəvi olaraq münaqişələrin qarşısının alınmasına, dialoqun təşviqinə və barışığın möhkəmləndirilməsinə töhfə verən siyasi liderlərə təqdim olunur. “Sülh və Barışıq üçün Gernika mükafatı” Prezident İlham Əliyevin sülhün təşviqi istiqamətində xidmətlərinin qlobal səviyyədə qəbul edilməsinin və qiymətləndirilməsinin təsdiqidir. Bu eyni zamanda Cənubi Qafqazdakı yeni siyasi reallığın beynəlxalq səviyyədə tanınmasının bariz göstəricisidir. Mükafatın 26 aprel – Gernika qurbanlarının anım günündə təqdim olunmasının isə rəmzi mənası var. “Sülh və Barışıq üçün Gernika mükafatı” Gernika faciəsinin tarixi yaddaşını yaşatmaq, sülh və barışıq proseslərində töhfəsi olan insanları tanıtmaq məqsədi daşıyır.

Prezident İlham Əliyevin “Sülh və Barışıq üçün Gernika mükafatı”nın təqdimolunma mərasiminin iştirakçılarına müraciətində vurğuladığı kimi, Gernika şəhərinin tarixindən irəli gələn sülh və barışıq mesajı bütün xalqlar üçün mühüm əhəmiyyət kəsb edir. Müharibələrin acı nəticələrini yaşamış xalqların xatirəsi və təcrübəsi gələcək nəsillərin daha sabit və təhlükəsiz dünyada yaşaması üçün mühüm dərs olmalıdır.

“Sülh və Barışıq üçün Gernika mükafatı” yalnız əldə olunmuş nailiyyətlərin tanınması deyil, həm də beynəlxalq birliyin ortaq rifahı, sülh naminə atılacaq gələcək addımlar baxımından mühüm ruhlandırıcı stimul və məsuliyyətdir.

Münaqişələr özü ilə ancaq dağıdıcılıq, iztirab, sülh isə quruculuq və rifah gətirər. Gernika faciəsi kimi biz də 34 il bundan əvvəl dəhşətli Xocalı faciəsini yaşadıq və ağrı-acısını uzun illər çəkdik. Xocalıya dönüş, Xocalının dirçəldilməsi, dağıntıların üzərində yenidən qurub-yaratmaq əzmi bir daha göstərdi ki, tarixi ədalət gec-tez yerini tapır və bu bütün dünyaya sülhün insanlar üçün daha gərəkli olduğu mesajını verir. 30 illik münaqişənin ədalətli həllinə nail olan ölkə başçısı İlham Əliyevin dünyaya nümunə olacaq sülh modelinin qurulması istiqamətindəki fəaliyyəti, enerji təhlükəsizliyinə töhfə verən layihələr, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı, müxtəlif platformalarda fəal iştirak, humanizm prinsiplərinə sadiqlik Azərbaycanın mövqelərini möhkəmləndirib, dostluq əlaqələrini genişləndirib. Öz ədalətli mövqeyi, güclü siyasi iradəsi ilə dünyaya sülh və barışıq mesajı verən ölkə başçısı İlham Əliyev bu ilin fevralında “Zayed İnsan Qardaşlığı Mükafatı”na da layiq görülüb. Bu mükafatlar Azərbaycanın dayanıqlı sülhə, insan qardaşlığına və qlobal sabitliyə verdiyi töhfələrin dəyərləndirilməsidir. Bu gün hələ də müharibə vəziyyətində olan ölkələr Azərbaycan nümunəsindən faydalana, sülhə, barışığa imza ata, insanlığa, qardaşlığa töhfə verə bilərlər. Sülh özü ilə xalqlara rifah, müharibə isə fəlakət gətirər. Qoca tarix də bütün dövrlərdə müharibə törədənləri lənətləyib, sülhə xidmət edənlərin isə adını qızıl hərflərlə öz səhifəsinə yazıb, əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə ötürüb.

✍ **Ruhiyyə RƏSULOVA**

## Fövqəladə hallar naziri Naxçıvan Muxtar Respublikasına səfər edib



Aprelin 30-da Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov Naxçıvan Muxtar Respublikasına səfər edib.

Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov Naxçıvan şəhərinin mərkəzi meydanında ucaldılmış Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər. Abidə önünə gül dəstələri düzülüb, Ulu Öndərin xatirəsi ehtiramla yad edilib.



## “AzerGold” QSC-nin İdarə Heyətinin sədri Naxçıvan Muxtar Respublikasına səfər edib



Aprelin 30-da “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Zakir İbrahimov Naxçıvan Muxtar Respublikasına səfər edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Zakir İbrahimov Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər.



## Səlahiyyətli nümayəndə tərəfindən növbəti vətəndaş qəbulu keçirilib



Mayın 1-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov tərəfindən növbəti vətəndaş qəbulu keçirilib.

Qəbul zamanı vətəndaşların, o cümlədən şəhid ailələrinin üzvlərinin və müharibə iştirakçılarının müraciətləri dinlənilib. Müraciətlər, əsasən, sosial təminat, məşğulluq, əlilliyin təyinatı, kommunal xidmətlər, eləcə də digər sosial məsələləri əhatə edib.

Ceyhun Cəlilov hər bir müraciətə həssaslıqla yanaşıldığını vurğulayaraq qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun şəkildə araşdırılacağını və onların həlli istiqamətində zəruri tədbirlərin görüləcəyini bildirib.

Qəbul zamanı qeyd olunub ki, vətəndaş müraciətlərinin dinlənilməsi, onların sosial problemlərinin operativ həlli, eləcə də şəhid ailələri və müharibə iştirakçılarına xüsusi diqqət göstərilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.





Bu istiqamətdə vətəndaş qəbullarının mütəmadi olaraq davam etdirildiyi diqqətə çatdırılıb.

ŞƏRQ QAPISI

# “Şərq qapısı” qəzetinin təcrübəçi tələbələri



## Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən 2026-cı ilin may ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirilən mərkəzi icra hakimiyyəti orqanının rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|
| 1. | **Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri** Şahin Mirzəyev | Babək | 14.05.2026 |
| 2. | **Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Hüseyn Səfərov | Ordubad | 14.05.2026 |
| 3. | **Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri** Rafail Quliyev | Sədərək | 12.05.2026 |
| 4. | **Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri** Fərid Bağırzadə | Şərur | 06.05.2026 |
| 5. | **Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Rəşadət Nabatov | Şahbuz | 14.05.2026 |
| 6. | **Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Məcid Seyidov | Kəngərli | 14.05.2026 |
| 7. | **Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Ramilə Seyidova | Culfa | 12.05.2026 |
| 8. | **Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** İlqar Sadıqov | Sədərək | 13.05.2026 |
| 9. | **"Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin İdarə Heyəti sədrinin müavini, sədr vəzifəsini müvəqqəti icra edən** Nihad Qurbanov | Kəngərli | 06.05.2026 |
| 10. | **Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru** Əkbər Novruzov | Babək | 22.05.2026 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat $11^{00}$-da başlayır.**

## Naxçıvanda yol infrastrukturunun yenilənməsi istiqamətində genişmiqyaslı layihələr icra olunur

Naxçıvan şəhərində və ətraf yaşayış məntəqələrində yol infrastrukturunun yenilənməsi istiqamətində həyata keçirilən tədbirlər ardıcıl şəkildə davam etdirilir. Regionun sosial-iqtisadi inkişafına xidmət edən layihələr çərçivəsində bir sıra küçə və avtomobil yollarında əsaslı təmir işlərinə başlanılıb, proses mərhələli şəkildə icra olunur.

Bu barədə Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyinin Texniki İstehsalat şöbəsinin rəisi Talıb Babayev məlumat verib. O bildirib ki, ümumi uzunluğu 95,6 kilometr olan avtomobil yollarını əhatə edən əsaslı təmir işləri hazırda davam etdirilir.

Layihələr "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilir. Təmir işləri Naxçıvan şəhərinin Qaraçuq, Hacıniyyət və 6-cı məhəlləri, Xətai məhəlləsi, həmçinin Səməd Vurğun, N.Naxçıvani, M.H.Şəhriyar və H.Rəhmanov küçələrini, eləcə də 58-ci və 61-ci məhəlləri əhatə edir.

Şöbə rəisi hazırda ərazilərdə torpaq işlərinin aparıldığını, yol yatağının genişləndirildiyini bildirib. Onun sözlərinə görə, yolun alt qatının möhkəmləndirilməsi məqsədilə qum-çınqıl materiallarından istifadə olunur, eyni zamanda yağış sularının kənarlaşdırılması üçün beton su kanalları çəkilir. Bir sıra hissələrdə isə yol örtüyü asfaltlanmaya hazır vəziyyətə gətirilib.

Agentlik rəsmisi bildirib ki, şəhərdaxili küçələrdə işlər başa çatdıqdan sonra muxtar respublikanın digər rayonlarında da kənddaxili yolların təmiri nəzərdə tutulur. Bu çərçivədə Babək rayonunun Nehrəm qəsəbəsində, Culfa rayonunun Yaycı kəndində, eləcə də Şərur rayonunun Muğancıq-Müslüm və Cəlilkənd-Düdəngə istiqamətlərində təmir işlərinin aparılması planlaşdırılır.

Naxçıvan şəhər sakini Akif Qurbanlı görülən işləri müsbət qiymətləndirərək bildirib ki, yol infrastrukturunun yenilənməsi gündəlik həyatın rahatlığı baxımından mühüm əhəmiyyət daşıyır.

"Uzun illərdir, bəzi küçə və yollarda hərəkət zamanı müəyyən çətinliklərlə qarşılaşırdıq. Hazırda aparılan təmir işləri sakinlər tərəfindən razılıqla qarşılanır. İnanırıq ki, layihələr başa çatdıqdan sonra həm nəqliyyatın hərəkəti daha rahat olacaq, həm də şəhərimizin ümumi görünüşü daha da müasirləşəcək", – deyə o qeyd edib.

Qeyd edək ki, Naxçıvanda həyata keçirilən əsaslı yol təmiri işləri regionun nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində atılan mühüm addımlardandır. Layihələrin icrası şəhərdaxili və rayonlararası hərəkətin daha rahat və təhlükəsiz təşkilinə, eyni zamanda muxtar respublikanın sosial-iqtisadi inkişafına əlavə töhfə verəcək.



## Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 103-cü ildönümü qeyd olunub

Aprelin 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin təşkilatçılığı ilə Kəngərli rayonunun Şahtaxtı kənd tam orta məktəbində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 103-cü ildönümü münasibətilə tədbir keçirilib.

Əvvəlcə görkəmli alimin məktəbdəki büstü önünə gül dəstələri qoyulub, onun xatirəsinə yaradılan muzey ziyarət edilib.

Tədbirin əvvəlində Ulu Öndər Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Ali Məclisin Sosial siyasət komitəsinin sədri Zeynəb Quliyeva Zərifə xanım Əliyevanın elmə verdiyi dəyərli töhfələrdən danışıb, Şahtaxtı kəndində dünyaya göz açmış görkəmli alimin tədqiqatlarının, qazandığı böyük uğurların Azərbaycan tibb elminin tarixində xüsusi mərhələ təşkil etdiyini diqqətə çatdırıb.





Digər çıxış edənlər zəriflik mücəssəməsi Zərifə xanım Əliyevanın ideyalarının bu gün də yaşadığını, tibb elminin inkişafına xidmət etdiyini bildirib, onun əziz xatirəsinin xalqımızın qəlbində daim yaşadığını vurğulayıblar.

Şahtaxtı kənd tam orta məktəbinin müəllimi Vüsalə Kazımova tərəfindən Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunan "İşıqlı irs" adlı STEAM Portret layihəsi təqdim olunub.

Sonda görkəmli alimin zəngin həyatı və elmi irsindən bəhs edən videoçarx nümayiş etdirilib.

## Naxçıvanda Çernobıl AES-də qəza ilə əlaqədar əlilliyi olan şəxslərə avtomobillər təqdim olunub



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Çernobıl Atom Elektrik Stansiyasında qəza ilə əlaqədar əlilliyi olan 4 şəxsə minik avtomobili təqdim edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, nazirlikdə Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş dəhşətli qəzanın 40-cı ildönümü ilə əlaqədar görüş keçirilib. Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Fərid Bağırzadə Çernobıl AES-də qəza ilə əlaqədar əlilliyi olan vətəndaşların sosial müdafiəsi sahəsində mühüm addımların atılmasına Ümummilli Lider Heydər Əliyevin



təşəbbüsü ilə 1993-cü ildə başlandığını, bu sahədə işlərin davam etdirildiyini vurğulayıb.

Bildirilib ki, Prezident İlham Əliyevin əlilliyi olan şəxslərə xüsusi diqqət və qayğısı Çernobıl hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin sosial təminatının da ildən-ilə gücləndirilməsinə imkan verib. Ölkəmizdə 2018-ci ildən icra olunan 5 sosial islahat paketi çərçivəsində bu kateqoriyaya aid şəxslərin sosial ödənişləri də dəfələrlə artırılıb.

Çernobıl hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və avtomobillə, reabilitasiya xidmətləri, sanatoriya-kurort müəssisələrinə yollayışla təminatı və digər istiqamətlərdə aparılan işlərdən bəhs olunub.

Çernobıl AES-də qəza ilə əlaqədar əlilliyi olan şəxslər həyata keçirilən sosial dəstək tədbirlərindən razılıqlarını bildirib, onlara göstərilən hərtərəfli qayğıya və bu gün avtomobillə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

## Naxçıvan enerji sistemi beynəlxalq standartlar mərhələsində

Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyinin gücləndirilməsi və dövlət başçısının strateji hədəflərinə uyğun olaraq "AzərEnerji" ASC regionun enerji infrastrukturunu köklü şəkildə yeniləyir. Müasir texnologiyalara əsaslanan yeni enerji sistemi qurulur, bu da elektrik təchizatının etibarlılığını, səmərəliliyini və beynəlxalq standartlara uyğunlaşmasını əhəmiyyətli dərəcədə artıracaq. Layihə çərçivəsində əsas enerji obyektlərindən olan 110 kilovoltluq "Naxçıvan", 154 kilovoltluq "Babək" və "Çeşməbasar" yarımstansiyalarının tam yenidən qurulması işləri yekun mərhələyə çatıb. Xüsusilə diqqətçəkən məqam odur ki, "Naxçıvan" yarımstansiyası regionda ilk dəfə olaraq qapalı tipli yarımstansiya kimi inşa edilir. Bu tip yarımstansiyalar yüksək təhlükəsizlik standartlarına cavab verir, ətraf mühitə təsiri minimuma endirir və operativ idarəetməni xeyli asanlaşdırır.

Eyni zamanda enerji sisteminin rəqəmsallaşdırılması istiqamətində mühüm addımlar atılır. "AzərEnerji"nin Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi davam edir. Yaxın vaxtlarda bütün stansiya və yarımstansiyalar vahid SCADA şəbəkəsinə inteqrasiya olunacaq. Bu sistem sayəsində enerji şəbəkəsinin məsafədən izlənməsi, idarə olunması və qəzaların operativ aradan qaldırılması mümkün olacaq. Ötürücü şəbəkənin yenilənməsi də mərhələli şəkildə həyata keçirilir. Ötən əsrin 50-ci illərindən qalan köhnə 110 kilovoltluq hava xətləri müasir standartlara uyğun ikidövrəli



ötürmə xətləri ilə əvəz edilir. Artıq ilkin mərhələdə "Culfa", "Ordubad-1" və "Ordubad-2" elektrik verilişi xətləri yenidən qurulub. Bundan əlavə, Naxçıvan şəhərində 110 kilovoltluq "Naxçıvan-1", "Naxçıvan-2", "Naxçıvan-3" və "Sementzavod-2" hava xətlərinin yaşayış ərazilərindən keçən hissəsi estetik və təhlükəsizlik baxımından müasir yeraltı kabel xətləri ilə əvəzlənib.

"AzərEnerji" ASC Naxçıvanda yalnız köhnə infrastrukturun yenilənməsi ilə məşğul olmur, həm də "yaşıl enerji" istiqamətində iri layihələr həyata keçirir. 2026-cı ilin fevralında energetika naziri Pərviz Şahbazov və "AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev tərəfindən iki yeni günəş elektrik stansiyası layihəsi üzrə mühüm müqavilələr imzalanıb. "CEI Nakhchivan" MMC ilə 25 MVt gücündə "Şəms 1" və "Enerso" MMC ilə 25 MVt gücündə "Qərbi Üfüq" Günəş Elektrik stansiyaları üçün investisiya, enerji alqı-satqı və ötürücü şəbəkəyə qoşulma müqavilələri imzalanıb. Ümumi gücü 50 MVt olan bu stansiyalar illik, təxminən, 122 milyon kVt/saat elektrik enerjisi istehsal edəcək, 26 milyon kubmetr təbii qaza qənaət və 57 min ton karbon emissiyasının azaldılmasına töhfə verəcək. Layihələr Naxçıvanı "yaşıl enerji zonası"na çevirmək strategiyasının mühüm hissəsidir və "AzərEnerji" stansiyaların şəbəkəyə qoşulmasını, enerji satınalmasını və sistem stabilliyini təmin edəcək.

Naxçıvanın Azərbaycanın əsas enerji sistemi ilə birləşdirilməsi və böyük regional enerji layihələrində iştirakı baxımından da strateji addımlar atılır. Cəbrayıl rayonundan başlayan ikidövrəli 330 kilovoltluq yüksəkgərginlikli ötürmə xəttinin inşası davam edir. Bu xətt 1000 meqavat yükötürmə qabiliyyətinə malik olacaq. Layihənin növbəti mərhələsində Zəngəzur dəhlizi vasitəsilə əlavə 44 kilometrlik xətt çəkiləcək. Nəticədə, Naxçıvan Azərbaycan-Türkiyə-Avropa enerji dəhlizinin mühüm halqasına çevriləcək. Bu genişmiqyaslı yenilənmə və inkişaf layihələri (o cümlədən 2025-2027-ci illər üzrə Reabilitasiya və Modernləşdirmə Proqramı) Naxçıvanın enerji təchizatında keyfiyyət sıçrayışı yaradacaq, itkiləri minimuma endirəcək, iqtisadi inkişafa güclü dəstək verəcək, "yaşıl enerji" potensialını artıracaq və regionun beynəlxalq enerji əməkdaşlığındakı rolunu daha da möhkəmləndirəcək.

**Rafiq TƏHMƏZ**



# COP29-dan WUF13-ə:
## qlobal təşəbbüslər, faydalı dialoqlar məkanı Azərbaycan

**Prezident İlham ƏLİYEV:**

***“2026-cı ildə dünyanın şəhərsalma sahəsində ən nüfuzlu tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfənin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın göstəricisidir. Bu mötəbər tədbir Azərbaycanın ümumdünya urbanizasiya proseslərində rolunu daha da gücləndirəcək, regionun dayanıqlı inkişafına və ümumilikdə qlobal urbanizasiya məqsədlərinə mühüm töhfə verəcəkdir.”***

Azərbaycanın beynəlxalq miqyasda artan siyasi nüfuzu və zəngin təcrübəsi özünü respublikamızda təşkil olunan mötəbər tədbirlərin timsalında da açıq-aydın göstərir. Ölkəmizin elmi-mədəni, ictimai-siyasi həyatına mühüm nailiyyətlər kimi yazılan bu tədbirlər həm də Cənubi Qafqaz liderinin dünya düzəninin nizama salınmasında vacib əhəmiyyət kəsb edən qlobal təşəbbüslər, faydalı dialoqlar məkanına çevrilməsinə gətirib çıxarır. Bunun ən bariz nümunələri sırasında 2024-cü ilin noyabrında Bakıda 196 ölkədən 72 min iştirakçının, 80 ölkə liderinin təmsilçiliyi ilə keçirilən və mühüm qərarların qəbul olunduğu COP29-u göstərmək olar. Azərbaycanın xarici və daxili siyasətinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin, diplomatiyasının xüsusi imic qazanmasının daha bir göstəricisi onun 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasına (WUF13) ev sahibliyi statusunu qazanmasıdır. WUF13 Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi zəngin təcrübənin geniş ictimaiyyətə tanıdılması, eləcə də qədimliklə müasirliyin vəhdətindən doğan unikal mədəniyyətin, memarlığın təbliği baxımından mühüm hadisə kimi yadda qalacaq. Forum, eyni zamanda respublikamızın ümumdünya urbanizasiya proseslərində iştirak imkanlarının gücləndiyini və bu sahədə etibarlı tərəfdaş kimi böyük etimad qazandığını göstərir. Prezident İlham Əliyevin dediyi kimi: ***“2026-cı ildə dünyanın şəhərsalma sahəsində ən nüfuzlu tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfənin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın göstəricisidir. Bu mötəbər tədbir Azərbaycanın ümumdünya urbanizasiya proseslərində rolunu daha da gücləndirəcək, regionun dayanıqlı inkişafına və ümumilikdə, qlobal urbanizasiya məqsədlərinə mühüm töhfə verəcəkdir”.***

Xatırlatmaq yerinə düşər ki, BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən 2001-ci ildə təsis olunan Ümumdünya Şəhərsalma Forumu bu gün dayanıqlı şəhər inkişafı sahəsində dünyanın ən nüfuzlu qlobal platforması hesab edilir. Forumun əsas məqsədi sürətli urbanizasiya ilə üzləşən dünyada şəhərlərin sosial, iqtisadi və ekoloji baxımdan davamlı inkişafını müzakirə etmək, dövlətlər arasında təcrübə və ideya mübadiləsinə şərait yaratmaqdır. İndiyədək bu forum Nayrobi, Barselona, Rio-de-Janeyro, Kuala-Lumpur və Əbu-Dabi kimi şəhərlərdə keçirilib. Tədbir urbanizasiyanın bütün aspektləri ilə məşğul olan minlərlə iştirakçıya şəhərlərin necə quruldüğu, planlaşdırıldığı və idarə edildiyi barədə təcrübə və biliklərini bölüşmək, fikir mübadilələri aparmaq üçün əlverişli şərait yaradır. Bütün bu amilləri nəzərə alanda, demək olar ki, WUF13 müxtəlif istiqamətlərdə bir çox alt tədbirlər vasitəsilə yeni çağırışlara vəsilə olacaq, tərəfdaşlıqlar üçün münbit zəmin hazırlayacaq. Tədbir çərçivəsində ayrı-ayrı ölkələrdən dövlət rəsmiləri, QHT-lər, bu sahədə fəaliyyət göstərən mütəxəssislər, ekspertlər, özəl sektor nümayəndələri bir araya gələrək geniş fikir mübadiləsi əsasında yeni bilik və təcrübə əldə edəcəklər. Forum, təbii ki, şəhərsalma sahəsində innovativ ideyaları ortaya çıxarmaqla yanaşı, respublikamızda dinamik inkişaf mərhələsini yaşayan müxtəlif iqtisadi sahələrə xarici sərmayədarların cəlbi, turizm sektorunun inkişafı üçün geniş perspektivlər açacaq. Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) ilə əlaqədar Azərbaycanın müxtəlif şəhərlərində WUF13 Festivalı da keçiriləcək. Festival çərçivəsində keçiriləcək tədbirlər şəhərsalma sahəsində innovativ yanaşmaların müzakirəsi, dayanıqlı inkişaf prinsiplərinin təşviqi və müxtəlif regionlar arasında təcrübə mübadiləsinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Eyni zamanda bu təşəbbüs Azərbaycanın şəhərlərinin beynəlxalq səviyyədə tanıdılmasına, turizm potensialının artırılmasına geniş imkanlar açacaq.

WUF13-ün Azərbaycanda təşkilinin əsasında güclü strategiya və qazanılmış dərin təcrübə dayanır. Təşəbbüs göstərən tərəfi düşündürən ən vacib məqam müxtəlif ölkələrdən təşrif buyuracaq qonaq sayının nəzərə alınması ilə, ilk növbədə, təbii ki, belə bir mötəbər tədbirin yüksək səviyyədə təşkili məsələsidir. Bu xüsusda onu qeyd etmək olar ki, Azərbaycan indiyə kimi Dünya İqtisadi Forumu, “IV İslam Həmrəyliyi Oyunları 2017”, “Avroviziya Mahnı Müsabiqəsi”, “Bakı-2015” birinci Avropa Oyunları”, “Beynəlxalq Astronavtika Konqresi”, “Formula 1”, III MDB Oyunları və COP29 kimi onlarla beynəlxalq səviyyəli tədbirlərin timsalında layiqli nümunə ortaya qoymağı bacarıb. Bundan başqa, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi və Tədbirlər Planının təsdiq olunması da bu sahədə fəaliyyətin konsepsiya əsasında qurulmasına və beləliklə də, WUF13-ün yüksək səviyyədə təşkilinə imkan verəcək mühüm faktordur. Bu qərar təkcə rəmzi xarakter daşımır, eyni zamanda ölkədə şəhərsalma siyasətinin sistemli şəkildə inkişafına, memarlıq irsinin qorunmasına, müasir urbanizasiya çağırışlarına uyğun yeni yanaşmaların tətbiqinə geniş imkanlar yaradır. “Şəhərsalma və Memarlıq İli” çərçivəsində həyata keçiriləcək layihələr Azərbaycanın şəhərlərinin daha dayanıqlı, funksional və estetik baxımdan müasir standartlara uyğun inkişafını sürətləndirəcək, eyni zamanda beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi üçün əlverişli platforma formalaşdıracaq.

WUF13 çərçivəsində beynəlxalq ictimaiyyətdə böyük maraq oyadacaq ən vacib nüanslardan biri isə, sözsüz ki, ölkəmizdə şəhərsalma sahəsində qazanılan təcrübə və şəhər quruculuğu prosesində tarixlə müasirliyin düzgün vəhdətinin yaradılmasıdır. Bunu illərdir, Azərbaycana səfər edən həm rəsmi şəxslər, həm də turistlər Bakı, Naxçıvan, Gəncə kimi şəhərlərimizin timsalında ən xoş sözlərlə dilə gətirirlər. Bu baxımdan, 30 il işğalçılıq siyasətinə, vandalizmə məruz qalan Qarabağ torpaqlarının müasir, ekoloji cəhətdən ən təmiz, sağlam, texnoloji baxımdan ən inkişaf etmiş üsullar, “yaşıl enerji”, “sıfır tullantı”, “ağıllı şəhər”, “ağıllı kənd” kimi ən yeni konsepsiyalar əsasında bərpası da tanınmış layihə institutları, o cümlədən Birləşmiş Millətlər Təşkilatının (BMT) Məskunlaşma Proqramının rəhbəri tərəfindən rəğbətlə qarşılanır. Məcburi köçkünlərin qayıdışı üçün ilk pilot layihə olan Zəngilan rayonunun Ağalı kəndi bu gün dünyanın ən müasir kəndləri sırasında bir nümunədir. Birləşmiş Millətlər Təşkilatı, Dünya Bankı və Avropa İttifaqı ilə birlikdə bərpa və yenidənqurma ehtiyaclarının birgə dəyərləndirilməsi əsasında işğaldan azad olunan rayonlarımızda reallaşdırılan bərpa prosesində təqdirəlayiq hallardan biri də qeyd etdiyimiz kimi, müasirləşdirilmə ilə yanaşı, qədimliyin də qorunub yaşadılmasıdır. Belə ki, bütün şəhərlərin Baş planları əraziyə xas tarixi-memarlıq irsinin və çoxəsrlik mədəni dəyərlərin qorunub saxlanılması nəzərə alınmaqla tərtib edilir. Bütün bunların timsalında WUF13 göstərir ki, Azərbaycan təkcə enerji ixracatçısı kimi deyil, həm də dayanıqlı inkişaf, “ağıllı şəhər” modeli və müasir şəhərsalma yanaşmalarını həyata keçirən ölkə olaraq da tanınır, rəğbət qazanır.

Onu da diqqətə çəkmək olar ki, BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) və Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı əsasında artıq ölkəmizdə bənzər 3 forum keçirilib. Başqa sözlə, digər sahələr kimi şəhərsalma sahəsində tədbirin təşkilatçılığı baxımından da kifayət qədər təcrübə artıq qazanılıb. Belə ki, 2022-ci ildə Ağdamda, 2023-cü ildə Zəngilanda və 2025-ci ildə Xankəndidə Azərbaycan Milli Şəhərsalma Forumu təşkil olunub ki, həmin tədbirlər şəhərsalma sahəsində dünyanın müxtəlif ölkələrindən olan sahə mütəxəssislərinin təcrübələrinin bölüşülməsi və dayanıqlı inkişafın təmin edilməsi üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından uğurlu platforma rolunu oynayıb.

Azərbaycanın qazandığı zəngin təşkilatçılıq təcrübəsi belə deməyə əsas verir ki, paytaxt şəhərimiz bu il Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) uğurla ev sahibliyi edəcək. COP29 sübut etdi ki, Azərbaycan Vətən müharibəsindən sonra regionda yaratdığı reallıqlar fonunda etibarlı tərəfdaş və məsuliyyətli ev sahibi kimi məsələlərin həllində nəticəyönümlü fəaliyyət ortaya qoymağı bacarır. Bu baxımdan, WUF13-ü COP29-un məntiqi davamı kimi, beynəlxalq ictimaiyyətin respublikamıza artan etimadı və etibarı olaraq dəyərləndirə bilərik. Həm COP29, həm də WUF13 göstərir ki, ölkəmiz bu gün nəinki regional, o cümlədən də qlobal məsələlərin həllində faydalı dialoq məkanına çevrilib və bu proses davamlılığını qoruyub saxlayır. Əminliklə deyə bilərik ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası ilə qədim şəhərsalma mədəniyyətinə malik ölkəmiz müasir dövrün tələblərinə uyğun ən yeni tikinti, bərpa layihələrinin ortaya çıxarılmasına vəsilə olmaqla bir çox əraziləri dağıdılan dünyaya əsl qurmaq, yaratmaq amalı aşılayacaq, şəhər quruculuğunda sülhə və əməkdaşlığa xidmət nümunəsi formalaşdıracaq.

**Nail ƏSGƏROV**

# Mətbuat azadlığı və milli media: ənənədən müasirliyə uzanan yol

*Sürətli inteqrasiyanın hökm sürdüyü qloballaşan dünyada informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafında və ictimai şüurun formalaşmasında rolu getdikcə artır. Lakin təəssüf ki, zaman dəyişsə də, demokratiyanın əsas meyarlarından biri sayılan söz və mətbuat azadlığının hələ də senzura ilə üzləşdiyi cəmiyyətlər mövcuddur. Beynəlxalq qurumlar və demokratik təsisatlar bu vəziyyəti daim diqqətdə saxlayaraq vaxtında mühüm qərarlar qəbul ediblər. XX əsrin son onilliyində dünyada yaranmış siyasi reallıqları nəzərə alan müxtəlif ölkələrin jurnalistləri azad mətbuat prinsiplərinin maneəsiz yayılması və bəşəri bəlalara qarşı birgə mübarizənin zəruriliyini bildirib. Nəticədə, 1991-ci il mayın 3-də Namibiyanın Vindhuk şəhərində bəyannamə qəbul olunub, YUNESKO-nun tövsiyəsi əsasında isə 1993-cü ilin mayın 3-ü BMT Baş Assambleyası tərəfindən Ümumdünya Mətbuat Azadlığı Günü elan edilib. Bəyannamənin qəbulundan 35 il keçməsinə baxmayaraq, insan hüquqlarının hərəkətverici qüvvəsi olan informasiya axtarmaq, əldə etmək və yaymaq azadlığı bu gün də öz aktuallığını qoruyub saxlayır.*







Ümumdünya Mətbuat Azadlığı Günü ölkəmizdə də fəal dəstəklənir, insan hüquqlarının müdafiəsi, söz və mətbuat azadlığı kimi məsələlərə xüsusi önəm verilir. Məlumdur ki, Azərbaycanda milli mətbuatın əsası 151 il bundan öncə, daha dəqiq desək, 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin nəşri ilə qoyulub. Qəzetin yaradıcısı Həsən bəy Zərdabi onun məqsəd və vəzifələrindən biri kimi insanların məlumat almaq hüquqlarını əsas tutub. "Əkinçi" ilə uzun, keşməkeşli yola çıxan Azərbaycan mətbuatı bu gün fəaliyyətini dəyişən dünyanın reallıqları səviyyəsində qurmağı bacaran müstəqil mediaya çevrilib. Ötən il Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Milli mətbuatımızın 150 illik yubileyinin geniş qeyd olunması və "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ölkəmizdə jurnalistikanın inkişafına, azad və müstəqil mətbuata verilən dəyərin bariz ifadəsidir.

### Azərbaycanda azad media mühiti: tarixi əsaslar və müasir islahatlar

Mətbuatın əsas silahı olan söz və düşüncənin həqiqi azadlığa qovuşması Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət müstəqil mətbuatın inkişafına xüsusi diqqət yetirib, 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanla ölkəmizdə söz, fikir və mətbuat azadlıqlarının təminatına əlverişli şərait yaradılıb, senzura ləğv olunub, dövlətin mətbuat üzərində nəzarətinə son qoyulub. Azərbaycan Respublikasının Konstitusiyasında söz, fikir və mətbuat azadlığı təsbit olunub. Ulu Öndərin müvafiq Sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə Tədbirlər Proqramı" təsdiq edilib, kütləvi informasiya vasitələrinin yaranması və fəaliyyətinin hüquqi əsaslarının möhkəmləndirilməsi məqsədilə Mətbuat, Teleradio və İnternet Şurası fəaliyyətə başlayıb. Bir sıra qəzetlərin Azərbaycan nəşriyyatına olan borclarının ləğvi onların fəaliyyətinə böyük töhfə verib. Məhz milli mətbuatın inkişafına göstərdiyi əvəzsiz qayğının nəticəsidir ki, 2002-ci ildə Ümummilli Lider Heydər Əliyev "Jurnalistlərin dostu" mükafatına layiq görüləræk dünya siyasətçiləri arasında bu mükafatı almış ilk dövlət başçısı olub.

Görkəmli dövlət xadiminin mütərəqqi siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkə mediasının fəaliyyətinə dair mövcud qanunvericilik daha da təkmilləşdirilib. Bu məqsədlə dövlət başçısının 2021-ci il 12 yanvar tarixli "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı ilə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradılıb. Prezident İlham Əliyev tərəfindən 2022-ci il 8 fevral tarixdə təsdiq olunmuş "Media haqqında" Azərbaycan Respublikasının Qanunu media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir. Qanun, həmçinin jurnalistlərin peşəkar fəaliyyətinin maneəsiz və effektiv həyata keçirilməsinə, media subyektlərinin yaradıcılıq və redaksiya müstəqilliyinin ən etibarlı şəkildə müdafiəsinə və ifadə azadlığının möhkəmləndirilməsinə yönəlmiş təminat mexanizmlərinin daha da gücləndirilməsi üçün hüquqi əsas formalaşdırır. 2023-cü ildə ölkə başçısının təsdiqlədiyi Vergi Məcəlləsinə dəyişiklik media subyektlərinin müstəqil fəaliyyəti üçün mühüm təkan rolunu oynayıb. Bütün bunlar, eləcə də milli mətbuatın ildönümlərinin dövlət səviyyəsində geniş qeyd olunması, media subyektlərinə maddi yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, güzəştli ipoteka şərtlərinin müəyyənləşdirilməsi, jurnalistlərin fəxri adlar və dövlət mükafatları ilə təltif edilməsi, onlarla mütəmadi görüşlər mətbuata və mətbuat işçilərinə qayğının bariz göstəriciləridir.

### Tarixi zəfərin informasiya salnaməsi

Azərbaycan mediası söz və informasiya azadlığı hüquqlarından istifadə edərək ölkənin ən çətin anlarında, xüsusilə də İkinci Qarabağ müharibəsində üzərinə düşən vəzifəni layiqincə yerinə yetirdi. Müzəffər Ordumuzun şanlı zəfəri ilə bitən 44 günlük Vətən müharibəsində və sonrakı dövrdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında informasiya cəbhəsinin əzmkar döyüşçüləri – jurnalistlərin fəaliyyəti olduqca böyük idi.

Təbii ki, informasiya cəbhəsində də ən böyük missiyanı Ali Baş Komandan, Prezident İlham Əliyev həyata keçirib, Vətən müharibəsi dövründə 30-dan çox beynəlxalq media qurumuna geniş müsahibələr verib, bu gün və gələcək üçün aktual olan tarix və jurnalistika dərsləri keçib. Artıq bir neçə ildir, Şuşada təşkil olunan ənənəvi Qlobal Media Forumu isə nəinki ölkəmizdə, ümumilikdə, regionda azad sözə, müstəqil mətbuata verilən ən böyük dəyərlərdəndir.




### Naxçıvan mediası: davamlı inkişaf və müasir yanaşmalar

Ölkə başçısının rəhbərliyi ilə Naxçıvanda da media sahəsində ciddi keyfiyyət dəyişiklikləri əldə olunub, azad mətbuatın formalaşmasına şərait yaradılıb. Dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, kütləvi informasiya vasitələrinin fəaliyyətinin genişləndirilməsi bu sahədə mühüm nailiyyətlərin qazanılmasına əsas verib. 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının yaradılması, 2010-cu ildə "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni binanın istifadəyə verilməsi, müasir mətbəə avadanlıqlarının quraşdırılması, 2024-cü ildə Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin Naxçıvan Regional İdarəsinin fəaliyyətə başlaması bu sahənin inkişafına yeni imkanlar açıb. Ötən müddətdə mətbuat sahəsində çalışanların əməkhaqları artırılıb, əməyi ilə fərqlənən jurnalistlər fəxri adlara layiq görülüb. "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin maddi-texniki bazası gücləndirilib, yeni yayım avadanlıqları tətbiq olunub, televiziyanın efir vaxtı 17 saata çatdırılıb, peyk yayım lisenziyası verilib, Bakı bürosu fəaliyyətə başlayıb, müasir yayım və çəkiliş avadanlıqları alınıb, studiyalar yenidən dizayn edilib. Bütün bunların fonunda bu gün Naxçıvan teleradiosu gənc jurnalistlərin formalaşmasına öz töhfəsini verir.

Muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarında mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vəzifələrin təsisi dövlət orqanları ilə media arasında informasiya siyasətinin həyata keçirilməsində mühüm rol oynayıb. Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası üzrə təhsil alan tələbələrin yetişməsi üçün hər cür şərait yaradılıb. Ali təhsil ocağının Media Mərkəzində fəaliyyət göstərən "Qeyrət" nəşriyyatı, Universitet televiziyası və "Nuhçıxan" radiosu gənc jurnalistlərin nəzəri biliklərlə yanaşı, praktiki vərdişlərə də yiyələnməsinə mühüm töhfələr verir. Muxtar respublikanın aparıcı mətbuat orqanı "Şərq qapısı" qəzeti, eləcə də Naxçıvanda fəaliyyət göstərən "Nuhçıxan" İnformasiya Agentliyi, "Naxçıvanxəbərləri" İnformasiya Portalı, ölkəmizin mərkəzi informasiya agentliklərinin bölgə müxbirləri regionda baş verən hadisələrin geniş oxucu kütləsinə operativ çatdırılmasında mühüm rol oynayır.

2024-cü il mayın 1-də Prezident İlham Əliyevin "Media haqqında" Qanuna dəyişikliyi təsdiqləməsi ilə muxtar respublikanın ən uzunömürlü mətbuat orqanı "Şərq qapısı" qəzetinin təsisçilik statusu qanunvericilikdə təsbit edilib və fəaliyyətinin hüquqi əsası yaradılıb. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq 2024-cü il avqustun 15-də isə qəzet əməkdaşlarının əməkhaqları artırılıb. "Şərq qapısı" qəzeti redaksiyasında aparılan yenidənqurma işləri, otaqların müasir formada dizayn edilməsi, ən yeni avadanlıqlarla təminat, qəzetin tərtibatının yenilənməsi, saytında və sosial şəbəkə hesablarında oxucu, izləyici saylarında kifayət qədər artımın, aktivliyin müşahidə olunması media fəaliyyətində yeni yanaşmanın, keyfiyyət dəyişikliklərinin, formalaşdırılan yaradıcı mühitin nəticəsidir. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə əlaqədar Naxçıvan, Türkiyə və Bakıda təşkil olunan qəzetin "Naxçıvan fotolarda" adlı fotosərgisi fotojurnalistikanın müasir inkişafını göstərməklə yanaşı, diyarımızın turizm potensialının təbliği baxımından mühüm əhəmiyyət daşıyır.

Hadisələrin aktiv şəkildə dəyişdiyi, dezinformasiyaların geniş yayıldığı müasir dövrdə insanlar mediada yayımlanan düzgün, dəqiq informasiyaları əldə etməyə böyük ehtiyac duyur. Ölkəmizin çoxsaylı media nümayəndələri də fəaliyyətlərində bu amili əsas tutaraq jurnalistikanın etik dəyərlərini yaşatmağa, Vətənə, xalqa qərəzsiz, vicdanla xidmət etməyə çalışırlar. 151 yaşlı azad sözün, müstəqil mətbuatın ziyasında Azərbaycan media nümayəndəsi adını şərəflə daşıyan hər bir jurnalistin ölkə həqiqətlərini dünyaya çatdırmaq işində, informasiya yarışında hər zaman ön sıralarda yer alması arzusu ilə...

**"Şərq qapısı"**

# Ordubadda ilk ipək fabriki

## “Ərbabın iş yeri”ndən reportaj

Bura Ordubaddır. Ümummilli Lider Heydər Əliyevin “Azərbaycanın incisi” adlandırdığı qədim və əsrarəngiz yurd yeri. Bu diyar əsrlərboyu sənətkarlığın, xüsusilə də ipəkçiliyin əsas mərkəzlərindən biri kimi tanınıb. Həmin şöhrətin təməlində isə XIX əsrdə – 1865-ci ildə yaradılan ilk ipək fabriki və onun qurucusu, xalq arasında “Ərbab” kimi tanınan Rzaqulu Rzayev dayanır.

Bu gün həmin tarixi məkan yenidən həyat qazanır. Milli-mənəvi dəyərlərin daşıyıcısı olan bina artıq təkcə keçmişin yadigarı deyil, gələcəyə ötürülən mədəni irs nümunəsi kimi bərpa olunur. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na əsasən burada genişmiqyaslı təmir-bərpa işləri aparılır.

Görülən işlərin əsas məqsədi, sadəcə, bir tikilini yeniləmək deyil. Bu layihə, bütövlükdə, Ordubadın zəngin tarixini, ipəkçilik ənənələrini və xalq yaddaşında yaşayan dəyərləri qoruyaraq gələcək nəsillərə çatdırmağı hədəfləyir.

AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, dosent Aytən Cəfərova deyir ki, Ordubadda ipək fabrikinin ilk direktoru Rzaqulu Rzayevin əsas yanaşmalarından biri yalnız ənənəvi üsulla ipək istehsalı ilə kifayətlənməmək, eyni zamanda dövrün müasir sayılan dəzgah və texnologiyalarını Ordubada gətirmək idi. Bu məqsədlə 96 çeşməli 24 ədəd dəzgah gətirilir və məhz bu yeniliklər sayəsində Ordubad ipəyi yüksək inkişaf səviyyəsinə çatır, ipəkçilik sənayesi güclənir.

Onun sözlərinə görə, ipəkçilik burada üç əsas sahənin – tutçuluq, barama açma və ipək əyirmənin sintezi əsasında inkişaf edib. Bu vəhdət həm sənayeni, həm də kənd təsərrüfatını gücləndirib, eyni zamanda bölgədə məşğulluğun artmasına səbəb olub.

1969-cu ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra isə Ordubadda ipəkçilik sənayesi daha da inkişaf edir. İpək fabriki müasir avadanlıqlarla təchiz olunur, istehsal prosesi yenilənir. Həmin dövrdə müəssisədə 800-dən çox, bəzi hallarda isə minə yaxın işçi çalışırdı. İşçilərin sosial təminatı da diqqətdə saxlanılır, o cümlədən onların gündəlik qida təminatı təşkil olunurdu ki, bu da ailə büdcəsinə müsbət təsir göstərirdi.

Alimin sözlərinə görə, Rzaqulu Rzayevin şəxsiyyəti isə təkcə sənaye quruculuğu ilə deyil, həm də insanlara münasibəti ilə yadda qalıb. Xalq arasında dolaşan rəvayətlər onun ədalətli, zəhmətə dəyər verən və insanları işlə təmin etməyə çalışan bir şəxs olduğunu göstərir: “Onun bu qədər ehtiram qazanmasının əsas səbəblərindən biri Ordubad əhalisinin məşğulluğuna xüsusi diqqət yetirməsi və əməyə yüksək dəyər verməsi idi. Xalq arasında belə bir rəvayət də dolaşır ki, sovetləşmə dövründə digər bəylər və iş adamları kimi Rzaqulu Rzayevin də vardövləti əlindən alınır və o, Gəncəyə sürgün olunur. Sürgün olunmazdan əvvəl xalq qarşısına çıxarılır və ona qarşı təhqiramiz ifadələr səsləndirilir. Həmin zaman nökərçiliklə məşğul olan bir şəxs onun əynindəki paltarı çıxarmağa cəhd edir. Bu hadisə Rzaqulu Rzayevi çox incidir və yaddaşında dərin iz buraxır. Beş il sonra Ordubada qayıdan Rzaqulu bəy həmin şəxsi yenə köhnə vəziyyətdə, əvvəlki kimi yaşadığını görür və kinayə ilə belə deyir: “Əgər yenə də köhnə vəziyyətində, paltarında yaşayacaqdınsa, işləyəcəkdinsə, niyə mənim paltarımı əynimdən çıxarmağa çalışırdın?” Bu sözlər onun həm xarakterini, həm də həyat fəlsəfəsini açıq şəkildə ifadə edir”.

Aytən Cəfərova bildirir ki, Rzaqulu Rzayev əməyə böyük dəyər verən insan olub: “Ona müraciət edən heç kəsi köməksiz qoymayıb, lakin pulu da səbəbsiz yerə verməyib. O hesab edirdi ki, insan qazancını mütləq zəhməti ilə əldə etməlidir”.

Bunu göstərən maraqlı nümunələrdən biri də belə bir hadisədir: “Günlərin birində bir nəfər ona müraciət edərək işlə təmin olunmasını xahiş edir. Qeyd edək ki, həmin ipək fabriki əvvəllər mədrəsə kimi fəaliyyət göstərmişdi və ərazidə çiy kərpiclər düzülmüş vəziyyətdə idi. Rzaqulu bəy həmin şəxsə tapşırır ki, kərpicləri bir tərəfdən götürüb digər tərəfə daşısın. O şəxs işi gördükdən sonra Rzaqulu bəy ona əməkhaqqı verir. Növbəti dəfə müraciət etdikdə isə eyni kərpicləri yenidən əvvəlki yerinə qaytarmağı tapşırır. Bu zaman həmin şəxs təəccüblə soruşur ki, “Bəy, bunun mənası nədir? Mən eyni işi görürəm”. Rzaqulu bəy isə belə cavab verir: “Mənası budur



ki, sən qazandığın pulu öz zəhmətinlə qazanmalısan”. Bu yanaşma göstərir ki, Rzaqulu bəy əməyə və zəhmətə böyük dəyər verən bir insan olub. Elə buna görə də xalq onu bu gün də “Ərbab” adı ilə yad edir, onun nüfuzunu və işində ustalığını xüsusi vurğulayır”.



### Ordubadda ilk ipək fabrikinin binasının tam bərpası bu ilin sonuna planlaşdırılır



Qeyd etdiyimiz kimi, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na əsasən muxtar respublikanın Mədəniyyət Nazirliyinin sifarişi əsasında “Ərbabın iş yeri” adlanan tarixi binanın əvvəlki görkəminə qaytarılması istiqamətində hazırda təmir-bərpa işləri aparılır. Prosesin ilin sonuna yekunlaşdırılması nəzərdə tutulur. Layihə rəhbəri Fərid Kazımlı deyir ki, işlər orta mərhələdədir və ümumi həcmin, təxminən, 50 faizi artıq tamamlanıb. Qaba işlər yekunlaşıb və hazırda əsas təmir-bərpa mərhələsinə keçilib.

Fərid Kazımlının sözlərinə görə, bina tam şəkildə ilkin vəziyyətinə qaytarılacaq, mövcud ornamentlər bərpa ediləcək. Bina iki mərtəbədən ibarətdir. Birinci mərtəbədə, əsas hissənin yan tərəfində ictimaiyyət üçün açıq olan kafe yerləşəcək. İkinci mərtəbədə inzibati heyət üçün otaqlar nəzərdə tutulub. Bundan əlavə, həmin mərtəbədə muzey bölməsi fəaliyyət göstərəcək. Muzey hissəsinin yaxınlığında isə geniş konfrans zalı istifadəyə veriləcək.

Tarixi irsin daşıyıcısı olan “Ərbabın iş yeri”ndə aparılan bərpa prosesi bir daha göstərir ki, Ordubadda yaradılan ilk ipək fabriki təkcə keçmişin yadigarı deyil, həm də gələcəyin mühüm mədəni irs və turizm mərkəzi kimi əhəmiyyət daşıyacaq. Uzun illərin sınağından çıxmış bu bina yenidən dirçəldilərək həm tarixi irsin qorunmasına, həm də regionun mədəni və turizm potensialının genişlənməsinə xidmət edəcək. Bu bərpa işləri, eyni zamanda sübut edir ki, zaman keçsə də, zəhmətə verilən dəyər, yaradılan irs və xalq yaddaşında yaşayan şəxsiyyətlər unudulmur, əksinə, bu dəyərlər yenidən canlandırılaraq gələcək nəsillərə ötürülür və yeni nəfəs qazanır.

Nail ƏSGƏROV

## Naxçıvanda 23 aprel – Milli Suverenlik və Uşaq Bayramı Günü qeyd edilib



Naxçıvanda Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunun, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və “Günəş” Uşaq Akademiyasının birgə təşkilatçılığı, həmçinin Mədəniyyət Nazirliyinin dəstəyi ilə 23 aprel – Milli Suverenlik və Uşaq Bayramı Günü münasibətilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya 23 aprel tarixinin Türkiyə Cümhuriyyəti üçün önəmindən danışıb, uşaqların cəmiyyətin gələcəyi kimi böyük dəyər daşıdığını vurğulayıb. Qeyd edib ki, bu əlamətdar günün Naxçıvanda da böyük coşqu ilə qeyd olunması sevindirici haldır. O həmçinin tədbirin təşkilində əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Tədbirdə çıxış edən Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Təhminə Mustafayeva və “Günəş” Uşaq Akademiyasının direktoru Ulduz Əliyeva bu günün önəm və mahiyyətindən bəhs edib.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra “Günəş” Uşaq Akademiyasının üzvləri, “Şərur” gimnastları, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin, Naxçıvan şəhərində fəaliyyət göstərən uşaq bağçalarının uşaqları bir-birindən rəngarəng bədii kompozisiyalarla çıxış ediblər. Həmçinin Ümummilli Lider Heydər Əliyevin, dahi öndər Mustafa Kamal Atatürkün aforizmləri səsləndirilib, görkəmli dramaturq Hüseyn Cavidin “Qız məktəbində” şeiri, incəsənət nümunələri nümayiş olunub. Türk sənətçisi Ahmet Şafakın “Azərbaycan-Türkiyə” mahnısı möhtəşəm rəqs şousu ilə səsləndirilib.

Sonda tədbirdə iştirak edən bütün uşaqlar birlikdə “23 nisan kutlu olsun” və “Hayat bayram olsa” mahnılarını ifa ediblər.

## Ordubad haqqında “Cənnətin iqamətgahı” adlı sənədli-etnoqrafik-musiqili filmin istehsalına başlanır




Azərbaycanın mədəni irs xəritəsində xüsusi yer tutan Ordubad haqqında “Cənnətin iqamətgahı” adlı sənədli-etnoqrafik-musiqili filmin istehsalına başlanır. Layihə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı, ISESCO-nun tərəfdaşlığı və Real Təhlil İnformasiya Mərkəzinin dəstəyi ilə AzerNyuMedia tərəfindən həyata keçirilir.

Film məkanın tarixini yalnız vizual deyil, həm də “eşidilən” və “hiss edilən” təcrübəyə çevirərək mədəni yaddaşın vizual-akustik rekonstruksiyası kimi təqdim olunur. Layihə Ordubadın zəngin tarixi, etnoqrafiyası, çoxqatlı adət-ənənələri və İslam mədəniyyətinin izlərini kompleks şəkildə əks etdirməyi hədəfləyir.

Çəkilişlər 2026-cı ilin mayında başlanacaq. Ekran əsəri klassik sənədli yanaşmadan fərqli olaraq etnoqrafiya ilə musiqini vahid dramaturji xətdə birləşdirir. Şəhərin məhəllələri, dini-memarlıq abidələri və təbii landşaftı tarixi yaddaşın canlı hissəsi kimi təqdim edilir.

Filmdə səslənəcək “Mingis”, “Ambaras”, “Sərşəhər” kimi bayatılar məkanın kollektiv yaddaşı ilə emosional bağ yaradır. Çəkilişlər Ordubad Came məscidi də daxil olmaqla autentik məkanlarda aparılacaq.

Filmin xronometrajı, təxminən, 45 dəqiqədir. İstehsalın yayda tamamlanması və beynəlxalq platformalarda nümayişi planlaşdırılır.

Ordubadın mədəni statusu dövlət siyasətində mühüm yer tutur: şəhərə 1977-ci ildə Heydər Əliyev tərəfindən qoruq statusu verilib, 2024-cü ildə isə Prezident İlham Əliyevin Sərəncamı ilə “Ordubad” Dövlət Tarix-Memarlıq Qoruğu yaradılıb. 2026-cı ilin fevralında şəhərin ISESCO-nun İlkin Siyahısına daxil edilməsi onun beynəlxalq əhəmiyyətini təsdiqləyir.

Layihə qeyri-maddi irsin qorunması və Azərbaycan mədəniyyətinin beynəlxalq təqdimatı baxımından əhəmiyyətlidir və “Azərbaycan Mədəniyyəti – 2040” konsepsiyasının prioritetlərinə uyğun olaraq mədəni irsin kreativ transformasiyasını nümayiş etdirir.

# Naxçıvanlı şagirdlərin beynəlxalq uğurları davam edir




Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin şagirdi Fatimə Bağırzadə və bir vaxtlar onunla eyni sinifdə təhsil alan Hüseyn Qafarlı qazandıqları uğurlarla diqqət çəkirlər. Hazırda Hüseyn təhsilini başqa məktəbdə davam etdirsə də, onları birləşdirən ortaq yol – karate idmanı və bu sahədə əldə etdikləri nailiyyətlərdir.

Qeyd edək ki, Azərbaycan Karate Federasiyasının təşkilatçılığı ilə 10-12 aprel 2026-cı il tarixlərdə Sərhədçi İdman Mərkəzində keçirilən "Grand Prix" beynəlxalq karate turniri onların uğur yolunda növbəti mühüm mərhələ olub. 6 ölkədən 700-ə yaxın idmançının qatıldığı turnirdə Naxçıvan Muxtar Respublikası "Naxçıvan" karate klubunun idmançıları təmsil ediblər. Yarışda Fatimə Bağırzadə xüsusilə fərqlənərək 10-11 yaş kateqoriyasında 44 kq çəki dərəcəsində bütün rəqiblərini məğlub edib və qızıl medal qazanıb. 7 ildir, karate ilə məşğul olan gənc idmançı bu uğurun arxasında zəhmət və əzmkarlığın dayandığını vurğulayır: "Son döyüşüm çox gərgin keçdi. Əvvəlcə hesabda geri düşsəm də, mübarizəni sona qədər davam etdirdim və düzgün anda etdiyim bir hərəkətlə qalib gəldim. Bu qələbə mənim üçün çox dəyərlidir".

Fatimə qeyd edir ki, idmanla yanaşı, dərslərinə də xüsusi diqqət yetirir və qazandığı uğurlar məktəb həyatına müsbət təsir göstərir: "İdman mənə daha məsuliyyətli olmağı öyrədir. Məktəbimdə də uğurlarıma görə dəfələrlə diplomlarla təltif olunmuşam".

Qafarlı Hüseyn isə karate sahəsində əldə etdiyi uğurlarla seçilən gənc idmançılardandır. O, 4 ildir, bu idman növü ilə məşğul olur və son 2 ildə məşqlərini daha ciddi, peşəkar səviyyədə davam etdirir. Qısa müddət ərzində qazandığı nailiyyətlər onun bu sahəyə böyük marağının və əzmkarlığının göstəricisidir. İndiyədək müxtəlif turnirlərdə iştirak edən Hüseyn, ümumilikdə, 15 medal qazanıb.

Gənc idmançı son yarışını xüsusi qeyd edir. Onun sözlərinə görə, əvvəlki yarışlardan fərqli olaraq bu dəfə özünü daha rahat hiss edib: "Son yarışımda, demək olar ki, həyəcan keçirmədim. Özümə inanırdım və hazırlığımın yaxşı olduğunu bilirdim. Bu inam mənə üstünlük verdi və nəticədə, birinci yerə layiq görülərək qızıl medal qazandım".

Hüseyn qeyd edir ki, onun üçün hər bir yarış yeni təcrübə və özünü sınamaq imkanıdır. O, gələcəkdə daha böyük yarışlarda iştirak etməyi və ölkəsini layiqincə təmsil etməyi qarşısına məqsəd qoyub.

Gənc idmançılar bildirirlər ki, qarşıda onları daha məsuliyyətli bir yarış gözləyir. Belə ki, onlar 24-26 aprel tarixlərdə İstanbul şəhərində keçiriləcək dünya çempionatında iştirak edəcəklər.

Bu uğurlar göstərir ki, məktəblərdə yetişən gənclər yalnız dərslərində deyil, idman sahəsində də yüksək nəticələr əldə edirlər. Bir zamanlar eyni sinifdə təhsil alan Fatimə və Hüseynin nailiyyətləri onların zəhmətinin, əzminin və məqsədyönlü fəaliyyətinin bariz nümunəsidir.

✍ **Zəhra VƏLİYEVA**

# Fırçanın rəngi və kəmərin gücü: bir tələbənin uğur hekayəsi

Bəzən bir insanın daxilinə bir neçə dünya sığar: rənglərin sakitliyi, idmanın intizamı, təhsilin sonsuz axtarışı... Sizə həm fırçası ilə kətan üzərində möcüzələr yaradan, həm tatamidə iradəsini nümayiş etdirən, həm də geniş maraq dairəsi ilə seçilən gənc bir simadan bəhs edəcəyik. Budəfəki qonağımız Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Rəngkarlıq ixtisası üzrə III kurs tələbəsi Günay Zamanovadır.

İnsanın mənəvi aləmindəki daxili duyğuları cəmiyyətlə bölüşməyin ən maraqlı yollarından biri rəssamlıqdan keçir. Günay qeyd edir ki, məktəb illərində bu sahədən bir qədər uzaq olsa da, daxilindəki qabiliyyəti kəşf etdikdən sonra rəssam olmağa qərar verir. Hazırda o öz bacarığını daha da təkmilləşdirərək tanınmış fırça ustalarından biri olmağı hədəfləyir. Dünyaca məşhur rəssamlardan Salvador Dali və Vinsent van Qoqun yaradıcılığını bəyənən gənc rəssam ən çox portret janrına müraciət etsə də, mənzərə işləməyə daha çox üstünlük verir. Onun fikrincə, janrdan asılı olmayaraq, hər bir əsərdə mütləq bir həyat hekayəsi olmalıdır.

Gəncimizin yaradıcılığını fərqli edən əsas məqam rəssamlıqla idmanın daxili harmoniyasıdır. Karate üzrə yaşıl kəmər sahibi olan Günayın fəlsəfəsi olduqca dərindir: "Rəssam kimi bəzən ən incə nüanslara toxunsam da, fırça ilə kətan üzərinə vurduğum zərbələrin qətiyyəti sanki tatamidəki sərtliklə birləşir. Karate mənim üçün, sadəcə, döyüş sənəti deyil, daxili bir nizamdır. Hər gün öz üzərimdə işləyirəm və daha yaxşısı olmaq üçün çalışıram. Hətta yaxın zamanlarda cüdoya da başlamışam. Düşünürəm ki, eyni anda bir neçə sahədə tam peşəkarlaşmaq çətin olsa da, vaxtı və enerjini düzgün idarə edərək buna nail olmaq mümkündür. Hər sahədəki uğur digərini qidalandırır".

Onun üçün tələbəlik illəri, sadəcə, auditoriya divarları ilə məhdudlaşmır. Günay biliklərini beynəlxalq müstəvidə də sınayaraq Türkiyənin köklü təhsil ocaqlarından olan Ərzurum Atatürk Universitetində bir semestrlik təhsil hüququ qazanıb. O bu təcrübəsini belə bölüşür: "Bu müddət həm rəssamlıq dünyagörüşümü genişləndirdi, həm də akademik bazamı möhkəmləndirdi. Səyahət zamanı yeni dostluqlar qazandım, tarixi yerləri kəşf etdim. Həmçinin bu imkan özümə olan inamımı artıraraq problemlərimlə təkbaşına başa çıxmağı mənə öyrətdi".

Ərzurumda birgə təhsil aldığımız müddətdə mən onun həm emalatxanadakı sarsılmaz səbrinə, həm də dərslərindəki məsuliyyətinə yaxından şahidlik etmişəm. Geri




döndükdən sonra o, yenə əzmlə fəaliyyətini davam etdirib semestr ərzində yüksək imtahan nəticələri, elmi və sosial aktivliyi ilə fərqlənərək təqaüdçü tələbələrdən biri olmağı bacardı. O, tələbə olmasına baxmayaraq, rəssamlığa yeni addım atanlara köməklik göstərir.

Günay, həmçinin könüllülük fəaliyyəti ilə də məşğul olur: "Könüllülük insanlara faydalı olmağın verdiyi mənəvi rahatlığı bəxş edir", – deyir. Günay Zamanova sübut edir ki, istedad zəhmətlə birləşəndə ortaya heyranedici mənzərə çıxır. O həm fırçası ilə dünyanı rəngləyir, həm də iradəsi ilə gələcək uğurlarının möhkəm bünövrəsini qoyur. İnanırıq ki, bu gəncimizin adını hələ çox böyük sərgilərdə və beynəlxalq arenalarda eşidəcəyik.

✍ **Səmayə RƏSULOVA**

# Əzm və zəhmət olan yerdə istənilən zirvəni fəth etmək mümkündür

Sərhədçi İdman Olimpiya Mərkəzində keçirilən və Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunan kikboksinq turniri bu dəfə də gərgin mübarizə, böyük əzmkarlıq və unudulmaz qələbələrlə yadda qaldı. 44 klub və 400-ə yaxın idmançının qatıldığı bu nüfuzlu yarışda Naxçıvan Muxtar Respublikasını təmsil edən idmançılarımız da öz əzmkarlıqları ilə turnirə damğa vurdular. "Ləvənt Bulut" döyüş klubunun komanda hesabında üçüncü yerə yüksələrək kubokla mükafatlandırılması bölgədə idmana göstərilən diqqətin nəticəsidir.

Bu uğurun arxasında illərlə çəkilən zəhmət və sarsılmaz iradə dayanır. Elə bu səbəbdən biz də həmin uğurun qəhrəmanlarının bir neçəsi ilə həmsöhbət olduq.




Bu uğurun arxasında dayanan əsas amillərdən biri gənc idmançıların əzmkarlığı və öz üzərlərində daim işləmələridir. Yeniyetmələr arasında 56 kiloqram çəki dərəcəsində birinci yerə sahib olan Zenfira Məmmədlinin sözlərinə görə, qələbəyə gedən yol psixoloji hazırlıqdan və soyuqqanlılığı qorumaqdan keçir: "Yarışın ilk saniyələrindən etibarən özümə inamım tam idi. Rinqə çıxanda hər bir rəqibimi diqqətlə analiz edir, məşqçimlə birlikdə qurduğumuz düzgün strategiyanı tətbiq etməyə çalışırdım. Hər bir döyüş mənim üçün bir imtahan idi və bu yarışma finala qədər inamla irəliləməyimə şərait yaratdı. Qazandığım bu qızıl medal mənim üçün böyük məsuliyyətdir və əslində, hər şey indi başlayır. Əsas məqsədim daha çox çalışaraq gələcəkdə beynəlxalq arenalarda, dünya və Avropa çempionatlarında Azərbaycan bayrağını dalğalandırmaq və ölkəmizi layiqincə təmsil etməkdir".

Kadetlər arasında 37 kiloqram çəki dərəcəsində birinci olan Hüseyn Behbudov yaşının az olmasına baxmayaraq, döyüş texnikası ilə insanların diqqətini çəkməyi bacarıb. Hüseyn Behbudovun sözlərinə görə, çempionluq yolu həm fiziki, həm də mənəvi hazırlıq tələb edən gərgin bir mübarizə olub: "Rəqiblərimə qarşı ani və dəqiq zərbələr endirmək, hərəkətlərimi qabaqcadan planlaşdırmaq mənə böyük üstünlük qazandırdı. Yarış zamanı psixoloji təzyiq olsa da, mən özümü itirmədən son saniyəyədək mübarizə apardım. Hər bir rəqibimin zəif nöqtələrini vaxtında görüb ona uyğun hücumlar təşkil etməyim qələbəmdə əsas rol oynadı".

Bu gənc idmançıların parlaq qələbələrinin arxasında isə təcrübəli məşqçi Etibar Qəribov dayanır. Onun rəhbərliyi altında yetişən idmançılar artıq respublika səviyyəsində də öz sözlərini deməyə başlayıblar. Məşqçi olaraq o hər bir idmançıya fərdi yanaşmanın vacibliyini xüsusi vurğulayır: "Mənim fikrimcə, hər bir gəncin potensialı fərqlidir və bu potensialı üzə çıxarmaq üçün düzgün istiqamət vermək əsas şərtdir. Mənim məşq metodikam fiziki hazırlıqla məhdudlaşmır, eyni zamanda idmançıların psixoloji hazırlığına da xüsusi önəm verirəm. Mən hesab edirəm ki, müasir idmanda qalib gəlmək üçün təkcə güc kifayət etmir, həm də düzgün düşünmək, qərar vermək və təzyiqə davam gətirmək lazımdır. Bizim əsas amalımız idmançılarımızı həm fiziki, həm də intellektual cəhətdən bu mübarizəyə hazır etməkdir".

"Ləvənt Bulut" döyüş klubunun komanda hesabında qazandığı 8 qızıl medal və fəxri üçüncülük klubun böyük potensialının və gələcək beynəlxalq arenalara iddialı çıxışının bariz ifadəsidir. Naxçıvan idmanının gələcəyi məhz bu cür gənclərin əlindədir. Onların hər bir uğuru yeni qələbələrin başlanğıcıdır. "Ləvənt Bulut" döyüş klubunun turnirdə qazandığı nailiyyət sübut edir ki, əzmkarlıq, zəhmət və düzgün rəhbərlik olduqda istənilən zirvəni fəth etmək mümkündür.

✍ **Elnurə CƏFƏROVA**


## Elan

"Səyyar Dəstə" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə çatdırılır ki, "Səyyar Dəstə" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbədənkənar ümumi yığıncağı 19 may 2026-cı il tarixdə saat 15[00]-da Naxçıvan şəhəri, N.Tusi küçəsi 3/2 38 ünvanında yerləşən cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyi aşağıdakılardır:

*1. "Səyyar Dəstə" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin 2025-ci ilin yekunlarına dair hesabatı;*

*2. "Səyyar Dəstə" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin yeni redaksiyada təsdiq edilməsi;*

*3. Təşkilati məsələlər (İdarə Heyəti, Müşahidə Şurası və Təftiş Komissiyasının üzvlərinin seçilməsi);*

*4. Sənədlərin hazırlanması, imzalanması və həmin işlərlə bağlı səlahiyyətli şəxslərin təyin edilməsi.*

Səhmdarlar "Səyyar Dəstə" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının gündəliyinə dair sənədlərlə cəmiyyətin inzibati binasında tanış ola bilər.

## *Bildiriş*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 6 mart 2026-cı il tarixli, 43-VII FR nömrəli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ləğv edilmişdir.

***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 6 mart 2026-cı il tarixli, 43-VII FR nömrəli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində "Sertifikatlaşdırma və Metrologiya Mərkəzi" publik hüquqi şəxs ləğv edilmişdir.

## *İtmişdir*

Ordubad şəhəri, Füzuli küçəsi, 18[A] ünvanında yaşamış Hüseynova Zeynəb Əkbər qızının adına olan 126 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qıvraq qəsəbə sakini Nəcəfov Rəşad Rəbbil oğlunun adına olan AZ-185 FX 471 və 85 K 270 nömrəli traktorun (yükləyici) texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 19, ev 16[D] ünvanında yerləşən Dünyamalıyev İbrahim Sabir oğluna məxsus 17611 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Niftəliyev Mirzalı Əmiralı oğlunun adına olan JN-987 nömrəli dövlət aktı və Babək şəhəri, İmaməddin Nəsimi küçəsi, 6 ünvanında yerləşən torpaq sahəsinin A023906 inventar nömrəli plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, H.Aslanov küçəsi, döngə 6, ev 2-də yaşamış Fərzəliyeva Şərəbanı Nəzərəli qızının adına olan 1342 nömrəli inventar sənədi itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Payız kənd sakini Quliyev Yusif Ulduz oğlunun adına olan baş gizirin SQ-0023788 nömrəli hərbi vəsiqəsi və buraxılış vərəqəsi itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dəstə kənd sakini Cəfərov Həsən Əbdülsəməd oğlunun adına olan JN-556[B] nömrəli, 10700018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Vərməziyar kənd sakini Nəbiyev Səfər Xanlar oğluna məxsus JN-181[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənddə yaşamış Abbasova Telan Məhəmmədəli qızına məxsus JN-841[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və JN-405 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Dərvişlər kənd sakini Şirəliyev Süleyman Salman oğluna məxsus JN-74[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Muğancıq-Mehrab kənd sakini Şəkərov Rüstəm Hüseyn oğluna məxsus JN-197[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ QAPISI

**Baş redaktor:**
**RƏMZİ TAHİRLİ**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00

Tiraj: 550. Sifariş № 85

*Nömrəyə məsul:* **Ceyhun Məmmədov, Əhməd Əhmədov, Elnurə Cəfərova**

*Dizayner:* **Həbibə Allahverdiyeva**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*